

Milli azadlıqdan şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

04 iyul 2026-cı il, şənbə
№ 115 (7182)
Qiymət i 60 qəpik


# Liderin gücü - xalq, xalqın gücü - Lider!



Bax səh. 2

## Sülhə doğru keçilən böyük yol

Bax səh. 3

## Azərbaycan - Türkiyə hərbi əməkdaşlığı güclənir

Azərbaycan - Türkiyə münasibətləri dostluq və qardaşlıq prinsiplərinə əsaslanır. Dünyada bir-birinə Azərbaycan və Türkiyə qədər yaxın olan hansısa digər dövlətlərin adını çəkmək mümkün deyil. İki qardaş ölkə tarixdən gələn və dil, din, mənəviyyat eyniliyinə söykənən ənənələrinə böyük önəm verirlər və bu yaxınlığı daim qoruyub saxlamağa, daha da möhkəmlətməyə çalışırlar.

Azərbaycanla Türkiyənin müxtəlif istiqamətləri əhatə edən münasibətlərində hərbi sahədə əməkdaşlıq xüsusi yer tutur. Bu sahədə əməkdaşlıq müxtəlif sənədlərlə təsbit olunub. Eyni zamanda, iki ölkənin hərbi sahədə dövlət qurumlarının rəhbər şəxsləri mütəmadi olaraq...

Bax səh. 4

## Pan-Avropa enerji təchizatçısı



Bax səh. 4

## Günün çağırışı: Uşaqlar sosial şəbəkələrin labirintindən azad olunmalıdırlar!

Azərbaycanda uşaqların sosial şəbəkələrdən istifadəsinin qanunvericiliklə tənzimləməsi məsələsi gündəmə gəlib. Bu günlərdə parlamentdə sosial şəbəkələrdə uşaqların hüquqlarının qorunmasına dair qanun layihəsi son oxunuşda qəbul edilib. Söhbət İnzibati Xətalar Məcəlləsində, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Uşaqların zərərli informasiyadan qorunması haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsinin üçüncü oxunuşda təsdiqlənməsindən gedir. Qanun layihəsi rəqəmsal mühitdə uşaqların...

Bax səh. 3

## Dövlət satınalmalarında yenilik

Bax səh. 6

## İcbari tibbi sığortada rəqəmsal dövr...

Bax səh. 6

## Donald Tramp məmnun görünür

Bax səh. 7



## ABŞ qoşunlarını geri çəksə...

Bax səh. 7

# Liderin gücü - xalq, xalqın gücü - Lider!




Medianın İnkişafı Agentliyi (MEDİA) tərəfindən 2026-cı ilin birinci yarısında Prezident İlham Əliyevin fəaliyyətinə ölkə vətəndaşlarının münasibətini öyrənmək, bu sahədə dinamika və tendensiyaları təhlil etmək məqsədilə keçirilən ictimai rəy sorğusunun nəticələri açıqlanıb. MEDİA-dan verilən məlumata görə, sorğunun nəticələri Prezident İlham Əliyevin siyasi liderliyinə və strateji fəaliyyətinə ictimai dəstəyin yüksək səviyyədə olduğunu göstərib.

Sorğunun nəticələrinə əsasən, Prezident İlham Əliyevə respondentlərin etimad səviyyəsi ümumilikdə 87.7 faiz təşkil edir. Bu göstərici ölkədə hər 10 nəfərdən təxminən 9-nun Prezident İlham Əliyevə etimad etdiyini təsdiqləyir. Rspondentlərin 93.6 faizi Prezidentin fəaliyyətini müsbət qiymətləndirir.

Etimad və dəstəyin yüksək olduğunu təsdiq edən ən güclü indikatorlardan biri vətəndaşların seçki davranışlarıdır. Belə ki, Prezident seçkiləri növbəti bazar günü keçirilsə, rəyi soruşulanların böyük əksəriyyəti - 91,5 faizi seçkilərdə Prezident İlham Əliyevə səs verərdi.

**İlham Əliyevin uğur formulunun 4 qızıl qaydası**

MEDİA-nın apardığı sorğu nəticələrinin təhlili Prezidentə olan yüksək inam və etimadın dövlət başçısının reputasiyası ilə bərabər, həm də dövlətin daxili sabitliyinin qorunması fonunda formalaşdığını göstərir. Bu mənada, Prezident ictimai rəydə ümummilli maraqlar çərçivəsində birləşdirici, sabitlik baxımından isə alternativsiz hesab edilir - respondentlərin 81.9 faizi Prezident İlham Əliyevi alternativsiz siyasi lider kimi qəbul edir. Bu yanaşma sorğuda iştirak edən bütün sosial-demoqrafik qruplar üzrə müşahidə olunur və ötən dövrlərlə müqayisədə bu göstəricidə artım dinamikası qeydə alınıb.

Prezident İlham Əliyev artıq 22 ildir ki, müstəqil Azərbaycanın dövlət idarəçiliyi sükanının arxasındadır. Təqdim olunan ictimai rəy sorğusunun nəticələrindən də göründüyü kimi, İlham Əliyevin ilk dəfə Prezident seçildiyi 2003-cü ildən bəri ötən dövrdə xalqın ona olan inamı nəinki azalmayıb, əksinə daha da artıb. Dünya miqyasında çox az rast gəlinən bir haldır. Burada sual yaranır: Prezident İlham Əliyevə ümumxalq inamının artmasını şərtləndirən amillər hansılardır?

Əslində, burada hansısa bir sirli məqam yoxdur. Sualın cavabı bilavasitə Azərbaycan reallığındadır. Bu gün müstəqil Azərbaycan zirvələrdədir, xalqımız öz tarixinin ən qüdrətli dönəmini yaşayır. Ölkə nümunəvi inkişaf modelinə malikdir. Respublikamız xarici siyasətdə də ardıcıl uğurlara imza atır. Dünyada Azərbaycana böyük hörmət bəslənilir, bayrağımız ən mötəbər beynəlxalq təşkilatların önündə əzəmətlə dalğalanır, dost dövlətlərin sayı getdikcə artır. Bir sözlə, bu gün Azərbaycanın inkişafı, imkanları elə bir səviyyəyə çatıb ki, respublikamız qarşıda duran bütün məsələləri öz gücünə həll etmək iqtidarındadır və edir. Görünən və hamı tərəfindən də etiraf olunan reallıq ondan ibarətdir ki, Azərbaycanın artan gücü bilavasitə onun Lideri İlham Əliyevlə bağlıdır. O hər zaman öndədir, hər zaman ölkəmizin, xalqımızın daxildəki və xaricdəki bədxahlarının aqresiyalarını qətiyyətlə dəf edir. Dünyanın hazırkı mənzərəsi hər kəsə bəllidir. Beynəlxalq hüquq normaları pozulub, güc amili önə keçib, milli dövlətlərə qarşı təzyiqlər artıb. Təkcə son vaxtlarda yaxın və uzaq coğrafiyalarda yerləşən ayrı-ayrı ölkələrdən rəngli inqilablar dalğası keçib. Belə rəngli inqilablar daxili amillərə görə baş verməyib, onların ssenariləri xaricdəki müəyyən güc mərkəzlərinin diktəsi ilə yazılıb və sonra da məqsədli şəkildə ixrac olunub. Niyyət, əlbəttə ki, xoş olmayıb. Milli dövlətləri təziyq altında saxlamaq, sabitliyi pozmaq, xaos şəraitində oyuncaq rejimlər qurmaq və sərvətlərə çıxış qazanmaq bu ssenarilərin əsas qayəsini təşkil edir. Açıq deyək ki, Azərbaycan da zaman-zaman daxildəki özlərini "radikal müxalifət" adlandıran, əslində isə "beşinci kolon" rolunu oynayan kəsimin qrantlar müqabilində dəstək verdiyi belə hücumlarla az üzləşməyib. Ancaq Liderin uzaqgörənliyi, siyasi qətiyyəti, çevik diplomatiyası, xalqa arxalanması sayəsində müstəqilliyimizə, nailiyyətlərimizə, milli birliyimizə yönələn belə cəhdlərin qarşısı alınıb, dövlətçiliyimiz qorunub və şübhə yoxdur ki, bundan sonra da qorunacaq. Hazırda Prezident İlham Əliyev Azərbaycanın yenilməz gücünü simvolizə edir.

Müasir dövrün Lideri kimi xarakterizə edilən Prezident İlham Əliyevin uğur formulunun düsturu dörd mühüm amillə səciyyələnir:

- Vaxtı düzgün seçmək,
- Avantüraya getməmək,
- Ölkəni risk altına salmamaq,
- Mümkün dərəcədə maksimum uğura nail olmaq.

Məhz dövlət siyasətində bu uğur formuluna əməl edilməsinin nəticəsidir ki, hazırda Azərbaycan güclü dövlət imici qazanıb və bütün istiqamətlərdə nailiyyətlər qazanır. Dünya tarixindən liderlərin ölkələrin, xalqların taleyində müstəsna rol oynadıqlarına aid çoxlu sayda nümunələr gətirmək mümkündür. Bizim tariximizdə böyük siyasətçi Heydər Əliyev Azərbaycanın güclü iqtisadi, siyasi və ideoloji əsaslarını yaradan Lider kimi əbədi qalacaq. Son 22 ildə isə Azərbaycan cəmiyyəti böyük məmnuniyyətlə Prezident İlham Əliyevin liderliyini qəbul edir. Bu gün Azərbaycan ona görə güclü dövlətdir ki, onun İlham Əliyev kimi Lideri var. İlham Əliyev isə ona görə fateh Liderdir ki, Onun arxasında yenilməz güc - xalq var. Müstəqil Azərbaycanın uğurlarının təməlində dayanan əsas amil məhz Prezident İlham Əliyevin "Biz birlikdə güclüyük" prinsipinə əsaslanmaqla həyata keçirdiyi siyasət dayanır.

Bu gün ölkə daxilində aparılan çoxvektorlu siyasətdə cəmiyyətin bütün sosial təbəqələrinin mənafeyi diqqət mərkəzində saxlanılır. Heç kəs dövlət qayğısından kənarda qalmır. Eyni zamanda, ölkədə yaşayan bütün xalqların mənafeyi qorunur, onların tarixi-mədəni irsinə böyük hörmətlə yanaşılır. Azərbaycan dünyada azsayı ölkələrdəndir ki, burada milli-dini fərqlilik ayrıcı xətlər yaratmır. Bütün xalqlar tariximizdən gələn tolerantlıq ənənələrinə uyğun olaraq çiyin-çiyinə yaşayırlar və ölkənin inkişafına töhfələrini verirlər. Bütün bunlar İlham Əliyev fenomeni ilə bilavasitə bağlıdır. O, həm bütün sosial qruplar, həm də Azərbaycanda yaşayan xalqlar üçün bir həmrəylik simvoludur.

**İqtisadi müstəqillik ölkə qarşısında geniş imkanlar açır**

Prezident İlham Əliyevi alternativsiz Lider kimi səciyyələndirən ən xarakterik cəhətlərdən biri ondan ibarətdir ki, O, hər zaman ölkənin prioritetlərini önə çəkir, hər inkişaf mərhələsinə uyğun mühüm strateji məqsədlər müəyyənləşdirir və milli gücü yeni hədəflərə nail olmaq naminə konsolidasiya etməyi bacarır. Milli gücü strateji məqsədlər naminə səfərbər etmək hər liderə müyəssər olmur. İlham Əliyev isə uzaqgörənliyi və əməli fəaliyyəti ilə Azərbaycanda güclü həmrəylik mühiti yaratmağa nail olub.

Son 22 ildə İlham Əliyevin müəyyənləşdirdiyi prioritetlər sırasında iqtisadiyyat hər zaman ilk sırada olub ki, bu da təsadüfi deyil. Dövlətimizin başçısı bu müstəsna seçimini "iqtisadiyyat bütün uğurların təməlində dayanır" tezisi ilə əsaslandırır. Ötən 22 ildə dövlətimizin başçısının qətiyyətli siyasi iradəsi ilə geniş əhatə dairəsinə malik olan islahatlar reallaşdırılıb, ölkədə iqtisadi inkişaf üçün bütün şərtlər təmin olunub. Bunun da nəticəsində milli iqtisadiyyatımız dinamik şəkildə inşişaf edir. Bəhs olunan dövrdə Azərbaycan iqtisadiyyatı nominal ifadədə 14,8 dəfə böyüyüb və əsas iqtisadi göstərici olan ÜDM-in həcmi 134 milyard manata çatıb. Dövlət büdcəsinin gəlir və xərcləri 32 dəfə artaraq 1,2 milyard manatdan 39,9 milyard manata yüksəlib. Xarici valyuta ehtiyatları 48 dəfədən çox artaraq 87 milyard dolları ötüb. Azərbaycanın xarici ticarət əlaqələri qurduğu ölkələrin sayı 124-dən 188-dək və ya 51,6 faiz artıb və xarici ticarət dövriyyəsi 5,2 milyard dollardan 56 milyard dollara yüksəlib.

Azərbaycan hazırda Cənubi Qafqaz iqtisadiyyatının lokomotividir. Bu regionda Azərbaycan ÜDM-in həcminə görə liderdir. Ölkəmizdə ÜDM 72,5 milyard dollar, Ermənistanda 16,2 milyard dollar, Gürcüstanda isə 19,3 milyard dollar təşkil edir. Cənubi Qafqaz iqtisadiyyatının ümumi həcmi 108 milyard dollar təşkil edir ki, onun 65 faizindən çoxu Azərbaycanın payına düşür. Cənubi Qafqaz iqtisadiyyatına yatırılmış cəmi investisiyaların həcmi 400 milyard dollardır, onun təxminən 350 milyard dolları Azrbaycana yönəldilib. Yəni xarici investorlar Cənubi Qafqazda kapital qoyuluşlarının 80 faizdən çoxunu Azərbaycana etibar ediblər.

Ölkənin iqtisadi hədəflərindən biri də qeyri-neft iqtisadiyyatının üstün inkişafının təmin olunmasıdır. Hazırda qeyri-neft və qaz sektorunun ÜDM-də payı 70 faizdən artıqdır ki, bu da özlüyündə əlamətdar bir nailiyyətdir. Beləliklə, respublikamızda iqtisadiyyatın şaxələndirilməsi artıq reallıqdır və bu istiqamətdə işlər gələcəkdə də davam etdiriləcək. Artıq bir sıra istiqamətlər üzrə, o cümlədən də aqrar sektorun inkişafı, rəqəmsal texnologiyalar əsasında yeni sənaye quruculuğu ilə bağlı yol xəritələri müəyyənləşdirlib və müvafiq Dövlət proqramları qəbul olnub.

Ən böyük uğurlardan biri də Prezident İlham Əliyevin qətiyyətli siyasi iradəsi sayəsində xarici borcun azaldılmasıdır. Bu, dövlət başçısı tərəfindən bir neçə il bundan əvvəl qarşıya qoyulan hədəf idi və hazırda nəticələr gözləniləndən də yüksəkdir. Bu gün ölkənin xarici borcu ÜDM-in cəmi 6 faizinə bərabərdir. Eyni zamanda, ölkəmizin strateji valyuta ehtiyatlarının xarici borcumuzu 20 dəfə üstələməsi də Azərbaycana böyük üstünlüklər yaradır.

**Nüfuzlu reytinq agentliklərinin müsbət və sabit dəyərləndirmələri**

Azərbaycanın iqtisadi inkişaf göstəriciləri nüfuzlu beynəlxalq reytinq agentlikləri tərəfindən də yüksək dəyərləndirilir. O cümlədən "Moody's" və "Fitch" kimi aparıcı reytinq agentlikləri tərəfindən verilən proqnoz müsbət və sabitdir. "Moody`s" beynəlxalq reytinq agentliyi cari ildə də Azərbaycanın suveren kredit reytinqini "Baa3" səviyyəsində təsdiqləyib. Agentlik qeyd edir ki, Azərbaycanın kredit reytinqi əhəmiyyətli maliyyə buferi ilə dəstəklənir ki, bu da xarici şoklara qarşı həssaslıq risklərini azaldır. "Moody`s"in "Müsbət" proqnozu davam edən islahatların iqtisadiyyatın karbohidrogen sektorundan iqtisadi və fiskal asılılığını daha da azalda biləcəyi barədə agentliyin fikrini əks etdirir. Bundan əlavə, pul-kredit siyasətinin transmissiyasının, maliyyə sektorunun tənzimlənməsinin, dövlət vəsaitinin idarə edilməsinin və inzibati proseslərin şəffaflığının yaxşılaşdırılmasına yönəlmiş cari islahatlar çərçivəsində institusional baza və idarəetmənin daha da gücləndirilməsi üçün perspektivlər mövcuddur. "Moody's"in analitikləri hesab edirlər ki, yaxın gələcəkdə Azərbaycanın reytinqinin aşağı salınması ehtimalı azdır.

Nüfuzlu "ING Group" xarici bank qrupu da ölkə iqtisadiyyatı ilə bağlı nikbin poqnozlar verib. Niderlandın ən böyük bank qrupu olan "ING Group" Azərbaycan iqtisadiyyatının 2026-cı ildə 2, 2027-ci ildə 3, 2028-ci ildə isə 2,3 faiz səviyyəsində artacağını proqnozlaşdırır. Qurum əvvəlki proqnozları ilə müqayisədə cari və növbəti il üçün ümumi daxili məhsulun artım templərini isə dəyişməz saxlayıb.

Bankın qiymətləndirmələrinə görə, Azərbaycanın 2026-cı ilin II rübü üçün iqtisadi artım proqnozu 2 faiz, III rübü üçün 3 faiz, IV rübü üçün isə 3,3 faiz təşkil edir. Bundan əlavə, ölkəmizdə gələn ilin I rübündə 3 faiz, II rübündə 3,5 faiz, III rübündə 2 faiz və IV rübündə 3,5 faiz səviyyəsində iqtisadi artım proqnozlaşdırılır.

**Siyasi qərarlar Bakıda, Prezident İlham Əliyev tərəfindən verilir**

Dünya üzrə özlərini "müstəqil" adlandıran dövlətlər bir-birindən fərqlənirlər. Bir qrup ölkələrin müstəqilliyi şərti səciyyə daşıyır. Bu qəbildən olan dövlətlərin iqtisadi potensialı çox aşağı olduğundan onlar hər zaman başqa ölkələrdən və üzv olduqları beynəlxalq təşkilatlardan kömək istəyirlər. Belə kömləklər isə, əlbəttə ki, müəyyən maraqların, gözləntilərin qarşılığında edilir. Beləliklə də, iqtisadi cəhətdən zəif olan dövlətlər reallıqda başqalarından asılı vəziyyətdə qalırlar və onların diqtəsi ilə oturub dururlar.

Azərbaycan isə belə dövlətlər sırasında yer almır. İqtisadi müstəqilliyin tam təmin olunması Azərbaycanın özünənam hissini artırır və müstəqil siyasi kurs həyata keçirməsini şərtləndirir. Hazırda özünün güclü iqtisadi potensialına əsaslanan Azərbaycan dövləti xalqımızın, ölkəmizin milli maraqlarını qətiyyətlə qoruyur. Ölkəmizin siyasəti sırf müstəqillik və suverenlik prinsiplərinə əsaslanır. Respublikamız öz siyasətində o mövqedən çıxış edir ki, ayrı-ayrı ölkələrlə və beynəlxalq təşkilatlarla münasibətlər bərabərhüquqlu əsaslarla qurulmalı və bütün tərəflərin qarşılıqlı maraqlarına xidmət göstərilməlidir. Ölkəmiz dostlarını özü seçir. Bizim siyasətimiz bəzi ölkələrdən fərqli olaraq hansısa mərkəzlərdə müəyyənləşdirilmir. Siyasi qərarlar Bakıda verilir və Prezident İlham Əliyev tətrəfindən imzalanır.

"Heç kim bizimlə diktat və ultimatum dili ilə danışa bilməz!" Bu fikri Prezident İlham Əliyev ən mötəbər auditoriyalarda qətiyyətlə səsləndirib və ayrı-ayrı dövlətlərlə, beynəlxallq təşkilatlarla münasibətlərimizdə real olaraq təsdiqləyib. İkinci Qarabağ müharibəsi günlərində müxtəlif mərkəzlərdən Bakıya zənglər gəlir və mesajlar ötürülürdü ki, müharibə dayandırılsın. Haqq mübarizəsi aparan Azərbaycan dayanmadı və tarixi ədalətin, beynəlxalq hüququn təntənəsinə nail oldu.

Postmüharibə dövründə Azərbaycanla Avropa Şurası Parlament Assambleyası (AŞPA) arasında yaranan gərginliyi xatırlayaq. AŞPA-da erməni lobbisinin təsir dairəsində olan qrup ölkəmizin şanlı zəfərlərini sinirə bilmir. Bu qəbildən olan deputatların cənfəşanlığının nəticəsi olaraq qurum respublikamıza hədəfə alan və əsassız tələblər irəli sürən bir neçə qətnamə qəbul etdi. Azərbaycan haqlı iradlarını qətiyyətlə bildirdi və bu iradlar nəzərə alınmadıqda nümayəndə heyətimiz iclas zalını tərk etdi. "Müstəqil, prinsipial xarici siyasət bizim əsas istiqamətimizdir. Biz heç kimə qarşı heç vaxt heç bir iş görməmişdik, heç kimin işinə qarışmamışdıq. Amma bizim işimizə qarışmaq istəyənlərə də hər dəfə dərs vermişik ki, bunu etməsinlər. Belə cəhdlər var, olacaq. Düzdür, onların heç bir əhəmiyyəti yoxdur. Ancaq bizim xarici siyasət istiqamətində bu amil təbii olaraq həmişə nəzərə alınacaq. Kim bizimlə ikitərəfli formatda, qarşılıqlı hörmət əsasında əməkdaşlıq etmək istəyirsə, biz ikiqat əməkdaşlıq edəcəyik. Amma əgər kimsə hesab edir ki, bizə gəlib nəsə diktə edəcək, yaxud da ki, bizi əsassız olaraq ittiham edəcək, ya da ki, hansısa vasitələrlə bizi qaralayacaq və sanki heç nə olmamış kimi bu ölkələrlə biz dostluq edəcəyik, bu, səhv təsəvvürdür, bu, olmayacaq! Azərbaycan çoxdan özünü ləyaqətli və qürurlu dövlət kimi təsdiqləyib", - deyə Prezident İlham Əliyev vurğulayıb.

*Mübariz ABDULLAYEV*

## Bir sıra qanunlar uyğunlaşdırılıb

Prezident İlham Əliyev bununla bağlı Torpaq Məcəlləsinin, "Torpaq icarəsi haqqında", "Torpaq bazarı haqqında", "Dövlət əmlakının özəlləşdirilməsi haqqında", "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında" və "Tənzimlənən qiymətlər haqqında" qanunların "Dövlət-özəl tərəfdaşlığı haqqında" qanuna uyğunlaşdırılmasını nəzərdə tutan qanunu təsdiqləyib. Sənədə əsasən, "Dövlət-özəl tərəfdaşlığı haqqında" qanuna uyğun olaraq torpaq sahələri üzərində hüquqların özəl tərəfdaşa ötürülməsi məqsədilə həmin torpaq sahələrinin dövlət mülkiyyətinə və ya icarəsinə verilməsi istisna olmaqla, digər hallarda bələdiyyə torpaqları üzərində mülkiyyət və icarə hüquqları yalnız açıq torpaq hərracları və ya müsabiqələri vasitəsilə əldə edilə bilər.

Dövlət-özəl tərəfdaşlığı layihəsini həyata keçirmək məqsədilə dövlət mülkiyyətində olan torpaq sahəsi özəl tərəfdaşa "Dövlət-özəl tərəfdaşlığı haqqında" qanuna uyğun olaraq səlahiyyətli orqanla özəl tərəfdaş arasında bağlanılan icarə müqaviləsinə əsasən icarəyə verilir. "Dövlət-özəl tərəfdaşlığı haqqında" qanuna uyğun olaraq bağlanılmış dövlət-özəl tərəfdaşlığı müqaviləsindən irəli gələn öhdəliklərin yerinə yetirilməsi hallarında "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" qanunun tətbiq dairəsinin məhdudlaşdırılması mümkündür.

# Sülhə doğru keçilən böyük yol

Bu gün dünyada izlənilən son dərəcə ziddiyyətli proseslərin, Yaxın Şərqdə, Şərqi Avropada uzanan dağıdıcı müharibələrin fonunda sülhün, sabitliyin nə qədər önəmli olduğu bir daha aydın görünür. Sülh yoxdursa, ölkələrin inkişafından, insanların rifahından, təhlükəsizlikdən danışmaq absurddur. İlk baxışda elə görünür ki, uzun illər ərzində münaqişə vəziyyətində olan ölkələr arasında dialoq qurmaq və sülh yaratmaq əsla mümkün deyil. Ancaq Azərbaycan-Ermənistan nümunəsinin timsalında dünya gördü ki, uzunmüddətli münaqişəyə, iztirablara və qarşılıqlı etimadsızlığa baxmayaraq, güclü siyasi iradə və beynəlxalq dəstək olduqda müharibə səhifəsini bağlamaq və gələcəyə baxmaq mümkündür. Prezident İlham Əliyev bu günlərdə Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayenin respublikamıza baş tutan səfəri çərçivəsində mətbuata verdiyi bəyanatında bildirib ki, de-fakto sülh qurulub və biz faydasını görürük.



**Azərbaycanın yaratdığı reallıqların təsdiqi**

Bu gün uzun illər boyunca müharibə risklərindən əziyyət çəkən Cənubi Qafqaz heç vaxt olmadığı qədər sülhə yaxındır ki, bu da qalib Azərbaycanın sırf öz gücü ilə yaratdığı reallıqların məntiqi davamıdır. Ancaq sülh prosesindən bəhs edərkən keçmişdə baş verənləri də heç vaxt unutmaq olmaz. Artıq tarixdə qalan otuz illik münaqişənin əsas səbəbi Ermənistanın Azərbaycana qarşı ərazi iddialarından çıxış etməsi olub. Bu ölkə ötən əsrin doxsanıncı illərinin əvvəllərində respublikamıza qarşı ərazi iddialarını açıq müstəviyə keçirməklə işğalçılıq siyasətinə başlayıb. Qonşu dövlət xarici havadarlarının dəstəyi ilə və o dövrdə respublikamızdakı qarışıq vəziyyətdən sui-istifadə etməklə keçmiş Dağlıq Qarabağı və ora bitişik əraziləri zəbt edib. Bu, dünya tarixində misli görünməmiş bir işğal idi. O dövrə aid foto və video-materiallar işğalçıların Azərbaycan əsilli vətəndaşlarla necə qəddar davrandıqlarını, ələ keçirdikləri ərazilərdəki bütün sərvətləri vəhşicəsinə taladıqlarını, yaşayış məntəqələrini yerlə-yeksan etdiklərini, tarixi mədəni-dini abidələri dağıtdıqlarını, inanc yerlərimizi, o cümlədən də məscidləri və qəbiristanlıqları təhqirlərə məruz qoyduqlarını bütün cəhətləri ilə əks etdirir. Bu işğal nəticəsində bir milyondan artıq azərbaycanlı öz doğma ev-eşiyindən didərgin düşmək məcburiyyətində qalmışdı. 30 il ərzində münaqişə ilə əlaqədar çoxsaylı nəticəsiz, sonsuz və mənasız danışıqlar raundları aparılıb. Münaqişənin sülh yolu ilə həllinə cəlb olunan böyük dövlətlər ilhaq siyasəti aparan Ermənistanı cəzalandırmaq, ona qarşı sanksiyalar tətbiq etmək əvəzinə, işğalçı ilə təcavüzə məruz qalan tərəf arasında bərabərlik işarəsi qoymağa çalışırdılar.

Danışıqlar prosesinin ilkin mərhələsində ölkəmizin, xalqımızın böyük ümidləri var idi. Prezident İlham Əliyev 2003-cü ildən sonradan nəticəsiz olduğu aydın olan bu danışıqlarda şəxsən iştirak edib, sülh yolu ilə həll variantı tapmağa və böyük dövlətləri həqiqətin bizim tərəfimizdə olduğuna inandırmağa çalışıb. Azərbaycan tərəfi deyirdi: "Haqq bizim tərəfimizdədir. Biz işğala məruz qalmışıq. Xəritəyə baxın, Ermənistan silahlı qüvvələrinin bizim ərazilərimizdə harada yerləşdiyini görün". Bunun müqabilində isə yalnız bir cavab alırdıq: "Gedin razılaşın" birinci mesaj. İkinci mesaj: "Bu münaqişənin hərbi həlli yoxdur". Üçüncü mesaj: "Siz müharibəyə başlaya bilməzsiniz". Dördüncü mesaj: "Əgər müharibəyə başlasanız, sanksiyalara məruz qalacaqsınız" və bunun kimi çoxsaylı başqa mesajlar verilirdi...

Prezident İlham Əliyevin qətiyyətli siyasi iradəsi sayəsində ölkənin ərazi bütövlüyünün və suverenliyinin təmin edilməsi Azərbaycanın gündəliyinin mərkəzində saxlanıldı. Respublikanın milli gücü bu ideya ətrafında səfərbər edildi. Belə ki, respublikamız danışıqlar prasesində fəallıq göstərməklə yanaşı, həm də özünün iqtisadi-maliyyə imkanlarını genişləndirdi, müasir , güclü ordu qurdu. Prezident İlham Əliyev keçmiş Minsk qrupu çərçivəsində aparılan danışıqlarda və digər beynəlxalq auditoriyalarda birmənalı şəkildə bildirdi ki, ərazi bütövlüyü bizim üçün qırmızı xətdir və buna istənilən yolla nail olacağıq.

Müzəffər Silahlı Qüvvələrimizin 44 günlük müharibədə qazandığı şanlı Zəfər sayəsində Azərbaycan özünün ərazi bütövlüyünü hərbi-siyasi yolla təmin etdi. 2023-cü ilin sentyabr ayında Ordumuz 23 saatlıq lokal xarakterli antiterror əməliyyatı həyata keçirdi, Xankəndidəki və digər ərazilərimizdəki separatizm yuvasını tamam dağıtdı. Bir vaxtlar ölkəmizə qarşı dövləti və amansız müharibə cinayətləri törətmiş şəxslər tutularaq Bakıya gətirildilər və hazırda onlar məhkəmənin qərarı ilə cəzalarını çəkməkdədirlər.

Yalnız lokal xarakterli antiterror əməliyyatından sonra bir vaxtlar "Qarabağ Ermənistandır və nöqtə" deyən baş nazir Nikol Paşinyan Azərbaycanın ərazi bütövlüyünü tanımaq ilə bağlı bəyanat verdi və Qarabağın respublikamıza aid olduğunu bildirdi. Baş nazirin bu bəyanatı Ermənistandakı revanşist əhval-ruhiyyəli qüvvələri, eləcə də bu ölkənin yaxın-uzaq coğrafiyalardakı havadarlarını şoka salsa da, əslində, reallığın təsdiqi idi. Beynəlxalq hüquq çərçivəsində davranan, ədalətli müharibə aparan qalib Azərbaycan özünün həqiqətlərini, regionda yaratdığı reallıqları dünyaya qəbul etdirməyə nail oldu.

**Regionda sülh reallıqdır**

Azərbaycan heç vaxt müharibə tərəfdarı olmayıb və heç vaxt da qonşu dövlətlərin ərazilərini zor gücünə ilhaq etmək niyyətinə düşməyib. Əksinə, ölkəmiz regional əməkdaşlığın dərinləşdirilməsini özünün xarici siyasət kursunun əsas prioritetlərindən biri kimi müəyyənləşdirib. Prezident İlham Əliyev dəfələrlə belə bir tezisi əsaslandırıb ki, özünü qonşu dövlətlərdən təcrid etmiş hər hansı bir ölkə inkişafa nail ola bilməz.

Tarixdən məlumdur ki, müharibələrdə qalib gələn dövlətlər qarşı tərəfə şərtlər diktə edirlər. Sülh tərəfdarı olan qalib Azərbaycan isə bu yolu tutmadı, müharibə başa çatdıqdan sonra Ermənistana 5 bənddən ibarət sülh paketi ünvanladı. Həmin sənəd sırf beynəlxalq prinsiplər nəzərə alınmaqla hazırlanmışdı. Sonrakı mərhələdə isə Azərbaycanın, şəxsən Prezident İlham Əliyevin qətiyyətli siyasi mövqeyi sayəsində 5 baza prinsipi əsas götürülməklə hər iki tərəfi qane edən sülh gündəliyi müəyyənləşdirildi. Məhz ölkəmizin fəal diplomatiyası sayəsində son 5 ildə sülhə doğru böyük yol keçilib. Bu yolda ötən il avustun 8-də Vaşinqtonda , Ağ Evdə, dünyanın bir nömrəli ofisində Azərbaycan, Ermənistan liderlərinin iştirakı və Donald Trampın şahidliyi ilə mühüm razılaşmaların əldə olunması, yekun sülh sazişinin xarici işlər nazirləri tərəfindən paraflanması, Birgə Bəyannamənin qəbul edilməsi böyük nailiyyətdir. Bununla da üç onillik ərzində davam edən münaqişə tamamilə sona çatıb, iki ölkə arasında sülh, etimad quruculuğu prosesinə keçid edilib. "Sülhü təkcə kağız üzərində deyil, gündəlik həyatda hiss etdiyimizi nümayiş etdirmək üçün bir çox birtərəfli addımlar atdıq. Azərbaycan öz ərazisi ilə Ermənistana daşınan yüklərin tranzitinə bütün məhdudiyyətləri aradan qaldırıb. Həmin məhdudiyyətlər beynəlxalq səviyyədə tanınmış ərazilərimizin Ermənistan tərəfindən işğalı səbəbindən tətbiq edilmişdi. Biz, həmçinin çox mühüm yanacağı, xüsusən də benzin və dizeli Ermənistana təchiz etməyə başlamışıq. Bu günün geosiyasi vəziyyətinə gəldikdə, onun əhəmiyyəti heç zaman olmadığı qədər daha da artır ", - deyə Prezident İlham Əliyev vurğulayıb..

**Sülh yolunda yeganə maneə**

Beləliklə, Azərbaycanla Ermənistan arasında tənzimləmə prosesi son mərhələyədək irəliləyib. Hazırda Vaşinqtonda paraflanan yekun sülh sazişinin imzalanması və sonradan ratifikasiyası yolunda yeganə maneə Ermənistanın hazırda qüvvədə olan konstitusiyasının məzmunudur. Azərbaycan qalıcı sülh mövqeyindən çıxış edir. Bunun üçün isə yalnız sülh sazişini imzalamaq yetərli deyil. Qalıcı sülh üçün fundamental hüquqi baza olmalıdır. Ancaq Ermənistanın hazırkı konstitusiyası bu bazanı təmin etmir. Bu da onunla bağlıdır ki, Ermənistanın əsas qanununun preambula hissəsində açıq-aşkar respublikamıza qarşı ərazi iddialarının yer aldığı müddəalar var. Belə bir vəziyyətdə hansı məntiqlə qalıcı sülhdən danışmaq mümkündür?

Buna görə də sülh təşəbbüsünün müəllifi olan Azərbaycan Ermənistan konstitusiyasının dəyişdirilməsini yekun sənədin imzalanması üçün əsas şərtlərdən biri kimi irəli sürüb. Ermənistan konstitusiya dəyişikliyinə gətməklə sülh prosesinə nə qədər sadiq olduğunu ortaya qoyacaq. Bu dəyişikliklər edildəndən sonra artıq sülh sazişi istənilən vaxtda imzalana bilər.

*Mübariz ABDULLAYEV*

# Günün çağırışı: Uşaqlar sosial şəbəkələrin labirintindən azad olunmalıdırlar!

Azərbaycanda uşaqların sosial şəbəkələrdən istifadəsinin qanunvericiliklə tənzimlənməsi məsələsi gündəmə gəlib. Bu günlərdə parlamentdə sosial şəbəkələrdə uşaqların hüquqlarının qorunmasına dair qanun layihəsi son oxunuşda qəbul edilib. Söhbət İnzibati Xətalar Məcəlləsində, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Uşaqların zərərli informasiyadan qorunması haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsinin üçüncü oxunuşda təsdiqlənməsindən gedir. Qanun layihəsi rəqəmsal mühitdə uşaqların hüquq və mənafelərinin daha effektiv qorunması, sosial şəbəkə platformalarından təhlükəsiz istifadənin təmin olunması, habelə platformaların fəaliyyətinin hüquqi tənzimlənməsinin təkmilləşdirilməsi məqsədilə hazırlanıb.

Qanun 12 aydan sonra qüvvəyə minəcək. Bu müddət ərzində yaş yoxlaması tətbiq ediləcək,eləcə də sosial şəbəkə platformalarının siyahısının müəyyənləşdirilməsi, maarifləndirmə, məlumatlandırma, təlimlər, texniki həllərin seçimi həyata keçiriləcək.

**Sosial şəbəkələrin açdığı imkanlar və yaratdığı risklər**

Biz informasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı ilə səciyyələnən Dördüncü sənaye inqilabı dövründə yaşamağımızla qürur duyuruq. Buna səbəb də var. İnternet dünyanı bizim ovcumuza daşıyır, hətta ən uzaq məkanlarda baş verənləri belə anındaca izləmək imkanımız olur. Böyüklərlə bağlı vəziyyət aydındır. Onlar internetdə, sosial şəbəkələrdə tanış olduqları kontentləri ağıl, düşüncə və təcrübə süzgəcindən keçirib dəyərləndirməkdə çətinlik çəkmirlər.

Əlbəttə, uşaqların həyatına daxil olan və onların ayrılmaq istəmədikləri, sevimli əyləncələrinə çevrilən sosial şəbəkələrin övladlarımızın qarşısında daha çox məlumat almaları, biliklərini artırmaları, yeni ünsiyyət qurmaları, dostlar qazanmaları, dünyanın virtual səyahətə çıxmaları üçün geniş imkanlar açdığını inkar etmək mümkün deyil. Ancaq nəzərə almaq lazımdır ki, uşaqların psixologiyası, həyata baxışları tam formalaşmadığına görə onların sosial şəbəkələrdə zərərli təsirlərə məruz qalma riskləri daha böyükdür. Obrazlı ifadə etsək, uşaqlar sosial şəbəkələrin labirintinə düşürlər, burada azırlar və müəyyən müddətdən sonra onları sosial şəbəkələr üzərindən aldıqları zərərli təsirlərdən qurtarmaq çox çətin olur və yaxud heç mümkün olmur.



Sosial şəbəkələr üzərindən uşaqlara zərəli təsirlərin ötürülməsindən bəhs etdikdə xüsusilə də zorakılıq, aqressiya, nifrət nitqi, saxta məlumatlar, yaşa uyğun olmayan reklamlar və vizual materiallar nəzərdə tutulur. Uşaqlar sosial şəbəkələrdə həmçinin kibertəhlükəsizlik, ailə sirlərinin ötürülməsi, təhqir, mənəvi zorakılıq, pis vərdişlərə çağırışlar və digər belə hallarla üz-üzə qalırlar. Dünyagörüşləri tam formalaşmayan uşaqlar bu təzyiqlərin gerçək məzmununu anlamaqda və düzgün qərar çıxarmaqda acizdirlər. Onlar uzun müddət əl telefonlarından, kompüterlərdən altıqları təsirlərdən yaxa qurtara bilmirlər və beləliklə də psixoloji sıxıntılara məruz qalırlar. Bir çox hallarda sosial şəbəkələr uşaqlarda asılılıq sindromu yaradır və onlar özlərinə qapanırlar. Belə uşaqlar üçün real həyatda sosiallaşma çətinləşir, onlar düşdükləri yeni mühitdə ünsiyyət qura bilmirlər. Bu kimi amillər nəzərə alınmaqla uşaqların sosial şəbəkələrdən istifadəsinin qanunvericiliklə tənzimlənməsi böyük aktuallıq daşıyır.

**Yeni qanunda hansı müddəalar yer alır?**

Layihə hazırlanarkən qabaqcıl beynəlxalq təcrübə təhlil edilib. Bu xüsusda, sosial şəbəkələrdə fərdi rəqəmsal hesabların açılması üçün minimum rəqəmsal yetkinlik yaş həddi 16 yaş müəyyən olunub. Layihədə 16-18 yaş qrupunun platformalarda fərdi rəqəmsal hesab yaratması, ondan istifadə etməsi və kontent paylaşması yalnız qanuni nümayəndəsinin razılığı və nəzarəti altında mümkün olacağı nəzərdə tutulur. Həmçinin platforma provayderlərinin uşaqların təhlükəsizliyinin təmin edilməsi, zərərli məzmunun qarşısının alınması, fərdi məlumatların qorunması, təhlükəli məlumatların operativ şəkildə silinməsi və dövlət orqanları ilə əməkdaşlıq etməsi ilə bağlı vəzifələri müəyyən edilir. Qanun layihəsi ilə İnzibati Xətalar Məcəlləsinə yeni maddələrin əlavə edilməsi nəzərdə tutulur.

Layihənin keçid müddəalarına əsasən, qanun qüvvəyə mindiyi gündən etibarən sosial şəbəkə platformalarına yeni tələblərə uyğunlaşmaq üçün müəyyən müddət verilir.

Qanunvericiliyə edilən dəyişikliklər heç bir halda "sosial şəbəkələrə qadağa", "uşaqların inkişafına zərbə", "uşaqların hüquqlarının pozulması", "uşaqlara sosial şəbəkədə qeydiyyata qadağa" anlamında qəbul edilməməlidir. Burada əsas məqsəd uşaqları sosial şəbəkələrin zərərli təsirlərindən qorumaqdır. Dəyişikliklərdə dövlət tərəfindən uşaqların müdafiəsinin gücləndirilməsi, onların gələcəyinə qayğının davam etdirilməsi, uşaqların yetkinlik yaşına çatana qədər sosial şəbəkə mühitində fəaliyyət üçün hazırlanması, daha sonrakı dövrdə isə valideyn nəzarəti ilə icazə verilməsi və digər müsbət məqamlara diqqət çəkilib. Uşaqların zərərli təsirlərdən qorunması, onların sağlam böyüməsi üçün hərtərəfli şəraitin yaradılması və dəstəyin verilməsi dövlətin sosial siyasətinin tərkib hissəsidir.

**Ayrı-ayrı ölkələrdə fərqli yanaşmalar**

Qanunvericiliyə edilən dəyişikliklər beynəlxalq təcrübə və yerli şərait nəzərə alınmaqla qlobal miqyasda gedən inkişaf meylləri ilə uzlaşır və müvafiq qanunvericilik çərçivəsində yeni tənzimləmə şərtləri yaradır. Hazırkı mərhələdə dünya ölkələrində sosial şəbəkələrin uşaqlara zərərli təsirləri ciddi narahatlıq doğurur və müxtəlif qanunvericilik tədbirləri müzakirə edilərək qəbul olunur.

Məsələn, 2025-ci ilin dekabrında Avstraliyada müvafiq qanun qəbul edilib. Fransa 2026-cı ilin yanvar-mart aylarında uşaqların sosial şəbəkələrdə olmasına yaş məhdudiyyəti tətbiq edən dünyada ikinci, Avropada birinci dövlət olub. Hazırda müxtəlif ölkələrdə müxtəlif yaşdan belə tənzimləmələrin tətbiqi imkanlarına baxılır. Danimarka 18, İspaniyada 16, Fransada 15, ABŞ-da federal səviyyədə 17, ştatlarda isə Kaliforniya, Texas, Nyu-York, Tennessi və Yutada 18, Kolorado, Corciya, Luizianada 16, Floridada 14 yaş məhdudiyyəti, eləcə də İrlandiyada OnlineSafetyCode və Böyük Britaniyada OnlineSafety Act kimi yanaşmalar mövcuddur. Almaniya, Portuqaliya, Norveç, Türkiyə, Kanada, Yeni Zelandiya, Malayziya, İndoneziya və Hindistan sosial şəbəkə platformalarında yaş məhdudiyyətləri müəyyənləşdirmək üçün qanunvericilik qərarları qəbul edib və ya etməkdədir. Qonşularımız olan Qazaxıstan və Özbəkistanda da analoji qanunvericilik təşəbbüsləri mövcuddur. Norveç 2026-cı ilin sonuna qədər sosial media platformaları üçün yaş məhdudiyyətləri tətbiq etməyi planlaşdırır.

*Mübariz FEYİZLİ*

# Pan-Avropa enerji təchizatçısı

## Azərbaycan Avropa, Xəzər regionu və Mərkəzi Asiyanı birləşdirən əsas ölkələrdən biridir



Azərbaycanda səfərdə olan Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen mətbuata bəyanatında Azərbaycanın dünya ölkələrinin enerji təchizatındakı roluna toxunaraq ölkəmizin Avropa İttifaqı üçün etibarlı enerji tərəfdaşı olduğunu sübuta yetirdiyini diqqətə çatdırdı. "Biz Rusiyanın enerjini silah kimi istifadə etdiyi və qazı kəsdiyi zaman Azərbaycanın irəliyə çıxdığını unutmamışıq. Cənub Qaz Dəhlizi həqiqətən Avropanın enerji təhlükəsizliyini gücləndirib və bu, heyrətamiz uğur hekayəsidir" deyə vurğulayan xanım Ursula Fon der Lyayen enerji tərəfdaşlığının növbəti səhifəsinin hazırlandığına diqqət çəkdi. Yeni əməkdaşlıq gündəliyi qaz hasilatı imkanlarını artırmaqla yanaşı, Xəzər dənizində külək enerjisini istehsal etmək kimi planlarının reallaşmasını nəzərdə tutur. Aİ bərpaolunan enerji mənbələri, elektrik enerjisinin qarşılıqlı nəqli və regional enerji şəbəkələri kimi sahələrdə Azərbaycanla əməkdaşlığı dərinləşdirmək üçün nəhəng potensial gördüyünü etiraf edir.

**Qaz ixrac olunan 14 ölkədən 10-u Avropa dövlətidir**

Azərbaycan öz enerji sərvətlərinə çox məsuliyyətli yanaşaraq ona bəslənilən ümidləri yaxın dost kimi müsbət həll edir. Ötən 20 il ərzində Avropa bazarında etibarlı neft təchizatçısı kimi etibarlı tərəfdaşa çevrilmiş respublikamız 2020-ci il dekabr ayının son günündə Cənub Qaz Dəhlizinin sonuncu hissəsini - Transadriatik qaz kəmərini (TAP) istifadəyə verməklə faktiki olaraq Avropa İttifaqının qaz bazarına daxil olub. 2021-ci ildə Azərbaycan Avropa regionuna 8 milyard kubmetr, 2022-ci ildə 11 milyard kubmetrdən çox qaz ixrac edib. 2023-cü ildə isə yanacaq nəqli 12 milyard kubmetr, 2024-cü ildə 25,2 milyard kubmetr, 2026-cı ildə isə 26 milyard kubmetrə yaxın qaz ixrac edib ki, onun yarısı Avropa dövlətlərinin payına düşür.

Bu gün hər ölkə üçün enerji təhlükəsizliyi milli təhlükəsizliyin ən mühüm amilidir. Azərbaycan böyük dərəcədə siyasi səylər qoymuş, diplomatik fəaliyyət aparmış və həmçinin neftimizin, qazımızın nəqli üçün infrastrukturun qurulmasına maliyyə sərmayələri yatırıb. Cənub Qaz Dəhlizi ümumi fəaliyyətin gözəl nümunəsidir. 3500 kilometrlik vahid boru kəməri sistemləri təbii qazın Azərbaycandan Avropaya nəqlində əsas arteriya hesab edilir.

Prezident İlham Əliyevin bəyan etdiyi kimi, Avropa Komissiyası ilə Azərbaycan arasında münasibətlərin çox mühüm mərhələsi başlayıb, əməkdaşlığı genişləndirmək və tərəfdaşlığı gücləndirmək məqsədilə hər iki tərəfin qarşılıqlı iradəsini əks etdirən münasibətlərimizdə görünməmiş dinamika müşahidə olunur. Enerji sahəsində Strateji Tərəfdaşlıq Haqqında Anlaşma Memorandumunun imzalanmasından sonra Avropa İttifaqının üzv dövlətlərinə Azərbaycanın təbii qaz ixracı təxminən 65 faiz artıb.

Bu gün Azərbaycan 14 ölkəyə qaz ixrac edir ki, 10-u Avropa dövlətidir. Bu yüksək etimad və sadiq tərəfdaşlığın nəticəsidir ki, Avropa Komissiyası Azərbaycanı etibarlı tərəfdaş və Pan-Avropa enerji təchizatçısı kimi tanıyır. Bir sözlə, respublikamızdan nəql olunan neft və qaz bir çox ölkələrin enerji təhlükəsizliyində və möhkəmləndirilməsində böyük dəyişiklik yaradır.

**Nəql coğrafiyası genişlənəcək**

Mövcud proqnozlara görə, 2027-ci ildə ölkəmzin Avropa regionuna ixracı 15 milyard kubmetrə çata bilər. Növbəti illərdə ixracın artırılması üçün digər mənbələr də səfərbər olunacaq. Bu isə digər ölkələrə də qaz nəqlini təmin edə biləcək. "Azərbaycan və Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu"na əsasən, ölkəmizin Avropaya qaz nəqli tədricən artaraq 20 milyard kubmetrədək yüksələcək. Bu rəqəmlər və proqnozlar Azərbaycanın qaz potensialını da artırmış olacaq və qaz təchizatının coğrafiyasının qarşıdakı illərdə daha da genişlənməsinə imkan verəcək.



Azərbaycanın qaz istehsalı həcmlərinin artması və yanacağa olan tələbatın yüksəlməsi Cənub Qaz Dəhlizinin ixrac infrastrukturunun da genişləndirilməsini labüd edir. Bu ehtiyaclar fonunda TAP kəmərinin ötürücülük potensialının genişləndirilməsi istiqamətində davamlı addımlar atılır.

**"Şahdəniz"dən sonra "Abşeron" dövrü başlayır**

Azərbaycanda qaz hasilatında əsas mənbə olan "Şahdəniz -2" layihəsi üzrə hasilat hər il artır və təkcə bu mənbədən hazırda illik 16 milyard kubmetr qaz istehsal edilir. "Şahdəniz"in əlavə ehtiyatlarından başqa Xəzərdə kəşf edilmiş "Abşeron" və "Ümid" yataqları, "Azəri-Çıraq-Günəşli" yataqlar blokundakı dərin qaz ehtiyatları, olduqca perspektivli "Şəfəq-Asiman", "Babək", "Zəfər-Məşəl" və başqa strukturlar da ölkəmizin potensialının artmasında mühüm rol oynamaqdadır. Əsas perspektivli yataqlardan biri olan "Abşeron" yatağında da hasilatın həcmində əhəmiyyətli artımlar müşahidə edilməkdədir. 2024-cü ildə bu yataqdan 1,5 milyard kubmetrdən çox qaz hasil edilib ki, bu, əvvəlki illə nisbətdə 2 dəfəyə yaxın artım deməkdir. Yataqda 350-360 milyard kubmetr qaz ehtiyatları ehtimal edilir. Digər qiymətləndirmələr bu yatağın ehtiyatlarının 400 milyard kubmetrdən də çox olduğunu deməyə əsas verir. Bu isə təkcə, "Abşeron"un Aİ-yə ən azı 20-25 qaz nəqlində perspektiv mənbə olacağını təsdiqləyir. Yeri gəlmişkən, dünyanın ən nüfuzlu iqtisadi institutlarından biri olan "Fitch Ratings" bir müddət əvvək açıqladığı hesabatda "Abşeron" qaz-kondensat yatağının "Şahdəniz-2"dən sonra Azərbaycanın ən böyük qaz mədəni olduğunu bildirib.

**Yüksəksəviyyəli Bağlantı Dialoqu formatı qurulur**

Azərbaycan Cənubi Qafqazın lider ölkəsi kimi Avropanı, Xəzər regionunu və Mərkəzi Asiyanı birləşdirən dünyanın ən möhtəşəm kəsişmələrindən biridir. Ölkəmizin strateji əhəmiyyəti daha da artmaqda davam edir və xanım Lyayenin etiraf etdiyi kimi, Azərbaycan yeni inteqrasiya proseslərində bölgədə əsas rol oynaya bilər. Burada enerji ilə yanaşı, regional daşımalar, nəqliyyat bloklarının diversifikasiyası da mühüm yer tutur. Şərq-Qərb və Şimal-Cənub daşıma dəhlizləri Azərbaycandan keçir və qonşularla, həmçinin qonşularımızın qonşuları ilə yaxşı münasibətləri təmin edir. Bu isə bütün iştirakçılara fayda gətirən çox geniş əməkdaşlıq formatını qurmağa imkan yaradıb. Aİ "Qlobal Qapılar" Sərmayə Proqramımız vasitəsilə Cənubi Qafqazda, o cümlədən Azərbaycana nəqliyyat, enerji və rəqəmsal keçid layihələrində yeni sərmayə yatırımlarını planlaşdırır. Bunun dövlət və özəl sərmayələr formasında 2 milyard avroya qədər vəsaitləri cəlb etmək potensialı var. Layihələrə Naxçıvandan keçən dəmir yolu bağlantısı və ya Bakı limanının inkişaf etdirilməsi daxil ola bilər. Nəticədə, Avropa İttifaqı və Azərbaycan arasında əhəmiyyətli olan enerji-nəqliyyat-iqtisadi tərəfdaşlığın dərinləşdirilməsi üçün münbit imkanlar formalaşmış olur.

*ELBRUS CƏFƏRLİ*

# Azərbaycan - Türkiyə hərbi əməkdaşlığı güclənir

Azərbaycan - Türkiyə münasibətləri dostluq və qardaşlıq prinsiplərinə əsaslanır. Dünyada bir-birinə Azərbaycan və Türkiyə qədər yaxın olan hansısa digər dövlətlərin adını çəkmək mümkün deyil. İki qardaş ölkə tarixdən gələn və dil, din, mənəviyyat eyniliyinə söykənən ənənələrinə böyük önəm verirlər və bu yaxınlığı daim qoruyub saxlamağa, daha da möhkəmlətməyə çalışırlar.



Azərbaycanla Türkiyənin müxtəlif istiqamətləri əhatə edən münasibətlərində hərbi sahədə əməkdaşlıq xüsusi yer tutur. Bu sahədə əməkdaşlıq müxtəlif sənədlərlə təsbit olunub. Eyni zamanda, iki ölkənin hərbi sahədə dövlət qurumlarının rəhbər şəxsləri mütəmadi olaraq qarşılıqlı səfərlər edirlər. Yeri gəlmişkən, iyulun 2-də Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan Türkiyə Prezident Administrasiyasının Müdafiə Sənayesi Agentliyinin sədr müavini Mustafa Murat Şekerin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. Müdafiə Nazirliyindən verilən məlumata görə, görüşdə müdafiə naziri ölkələrimiz arasında həyata keçirilən birgə hərbi sənaye layihələrinin ordularımızın müdafiə qüdrətini daha da artıracağından əminliyini ifadə edib. M.M.Şeker isə bu cür görüşlərin qardaş ölkə ilə mövcud hərbi əməkdaşlığın genişləndirilməsində xüsusi rol oynadığını vurğulayıb.

**Ordu rəhbərliyi sıx təmasdadır**

Səfər çərçivəsində nümayəndə heyəti müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi, general-polkovnik Kərim Vəliyev ilə də görüşüb. Görüşdə xalqlarımız arasında dostluq və qardaşlıq münasibətlərinin hərbi əməkdaşlığın yüksələn xətlə inkişafına böyük təsir göstərdiyi qeyd olunub.

Keçirilən hər iki görüşdə tərəflər ölkələrimiz arasında hərbi əlaqələrin inkişaf perspektivləri, o cümlədən peyk texnologiyaları, radioelektron mübarizə, insansız sistem və digər sahələrdə süni intellektin tətbiqinə dair ətraflı fikir mübadiləsi aparıb.

Bundan əlavə, Türkiyənin Milli Müdafiə Universitetinin (MMU) rektorunun müavini, general-leytenant Burhan Aktaşın rəhbərlik etdiyi nümayəndə heyəti də ölkəmizə səfər edib. O, Bakıda Milli Müdafiə Universitetinin rektoru, general-mayor Gündüz Əbdülovla görüşüb. G.Əbdülov Azərbaycan-Türkiyə münasibətlərinin qarşılıqlı inam, etimad və dostluq münasibətlərinə əsaslandığını qeyd edib. O, Azərbaycanda hərbi təhsil sistemində həyata keçirilən islahatlar və onun müsbət nəticələrindən danışıb, beynəlxalq təcrübə nəzərə alınmaqla tətbiq edilən yeniliklər barədə nümayəndə heyətinə ətraflı məlumat verib.

General-leytenant B.Aktaş səmimi münasibətə və qonaqpərvərliyə görə minnətdarlığını bildirib, uzun müddətdən sonra ölkəmizdə səfərdə olmaqdan məmnunluğunu ifadə edib, 26 İyun - Silahlı Qüvvələr Günü münasibətilə təbriklərini çatdırıb. Azərbaycan Ordusunun keçdiyi uğurlu inkişaf yolunun digər ölkələr üçün əsl nümunə olduğunu qeyd edən Türkiyə MMU-nun rektor müavini əməkdaşlığın bundan sonra da "Bir millət, iki dövlət" devizi altında davam etdiriləcəyinə əminliyini bildirib.

Görüşdə hərbi təhsil sahəsində görülən birgə işlərin cari vəziyyəti və inkişaf perspektivləri, hərbi qulluqçuların bilik və bacarıqlarının artırılması, peşəkar kadr heyətinin hazırlanması, eləcə də təcrübə mübadiləsi baxımından qarşılıqlı səfərlərin vacibliyi diqqətə çatdırılıb, maraq doğuran bir sıra mövzular ətrafında geniş fikir mübadiləsi aparılıb.

Azərbaycan müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin (HHQ) komandanı, general-leytenant Namiq İslamzadə isə Türkiyədə səfərdədir. N.İslamzadə "Anadolu Qartalı - 2026" beynəlxalq taktiki-uçuş təlimi çərçivəsində bir sıra tədbirlərdə iştirak edib, şəxsi heyətlə görüşüb. Azərbaycan heyətinin rəhbəri polkovnik Zaur Məmmədov təlimin gedişi və şəxsi heyət qarşısında qoyulan tapşırıqlar barədə HHQ komandanına məruzə edib. Təlimdə şəxsi heyətin nümayiş etdirdiyi peşəkarlıq nazir müavini tərəfindən yüksək qiymətləndirilib.

Sonra general-leytenant N.İslamzadə və Türkiyə HHQ-nin komandanı ordu generalı Ziya Cemal Kadıoğlu arasında görüş keçirilib. Görüşdə ölkələrimiz arasında hərbi aviasiya sahəsində əməkdaşlığın mövcud vəziyyəti və inkişaf perspektivləri, birgə keçirilən təlimlərin əhəmiyyəti və qarşılıqlı təcrübə mübadiləsi xüsusi vurğulanıb. Hər iki ölkənin HHQ-nin komandanları təlim fəaliyyətlərini havadan izlədikdən sonra təlim çərçivəsində təşkil olunan sərgidə nümayiş etdirilən hərbi silah və texnika nümunələri ilə tanış olublar.

**Hərbi əməkdaşlığın məzmunu genişdir**

Göründüyü kimi, hər iki ölkənin ordu rəhbərliyi sıx təmasdadırlar. Hazırda dünyada elə bir vəziyyət yaranıb ki, beynəlxalq hüquq və prinsiplər bir çox hallarda işləmir. Buna görə də ölkələr öz suverenliyini daxili gücü və müttəfiqlərinin dəstəyi ilə qorumaq məcburiyyətindədirlər. Azərbaycan və Türkiyənin hərbi əməkdaşlığı isə həm bu ölkələrin özləri, həm də bütövlükdə region üçün mühüm aktuallıq daşıyır. Hər iki ölkə regionda sabitliyin və təhlükəsizliyin təmin olunmasında maraqlıdır.

Azərbaycanla Türkiyənin hərbi sahədə əməkdaşlığının məzmunu kifayət qədər genişdir. İlk növbədə onu qeyd edək ki, NATO-nun aparıcı ölkələrindən olan Türkiyə Azərbaycan Silahlı Qüvvələrinin modernləşdirilməsinə öz dəstəyini göstərir. Hazırda Türkiyə modelinə istinad edilməklə Azərbaycan Ordusunun yeni strukturu formalaşdırılıb, o cümlədən də komando birlikləri yaradılıb. Ölkəmizin Türkiyə ilə hərbi təhsil sahəsində əməkdaşlığının önəmini xüsusi qeyd edə bilərik. 1996-cı ildə imzalanmış "Hərbi sahədə təhsil, texniki və elmi əməkdaşlıq razılaşması" çərçivəsində Türkiyə ilə Azərbaycan hərbi təhsil sahəsində yaxşı nəticələr qazanıblar. İndiyədək minlərlə azərbaycanlı gənc qardaş ölkənin Silahlı Qüvvələrində təcrübə keçiblər, bir sıra nadir ixtisaslara yiyələniblər və müxtəlif növ müasir silahların sirlərini öyrəniblər. Silahlı Qüvvələrimizin yenidən təşkilinə kömək məqsədilə hər il müəyyən kvotalar daxilində azərbaycanlı hərbi qulluqçular Türkiyədə təhsil almağa göndərilir. Təcrübə mübadiləsi baxımından Azərbaycandan və Türkiyədən olan hərbçilərin birgə təlimlərə cəlb olunmaları da çox əhəmiyyətlidir.



İki ölkə arasında müdafiə sənayesi sahəsində də yüksək səviyyəli əməkdaşlıq qurulub. Müdafiə sənayesi sahəsində əməkdaşlığın hüquqi təməldə həyata keçirilməsini təmin etmək məqsədilə indiyədək bir sıra sənədlər imzalanıb. Türkiyə hərbi texnika istehsalında böyük uğurlara imza atıb. Eyni zamanda, Azərbaycan da özünün müdafiə sənayesini inkişaf etdirir. Artıq ordumuzun müxtəlif döyüş sursatları ilə təminatının xeyli hissəsi məhz daxili istehsal hesabına həyata keçirilir. Qardaş ölkə ilə birgə müdafiə sənayesi müəssisələrinin qurulması perspektivləri böyükdür.

**Şuşa Bəyannaməsində hərbi əməkdaşlıq xüsusi yer tutur**

Hərbi əməkdaşlıq sahəsində uzun illər ərzində qazanılan təcrübə, eləcə də 2002-ci il mayın 14-də imzalanan "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında təmənnasız hərbi yardım haqqında Müqavilə" iki qardaş ölkəni 2021-ci il iyunun 15-də Şuşa Bəyannaməsinin imzalanmasına apardı. Yəni, Şuşa Bəyannaməsi əslində, sözügedən sənədin məntiqi davamı hesab oluna bilər. Qars Müqaviləsindən 100 il sonra iki dost və qardaş ölkə arasında imzalanan müttəfiqlik münasibətlərinə dair Şuşa Bəyannaməsi müstəsna siyasi və tarixi əhəmiyyət daşıyır. Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan tərəfindən imzalanmış Şuşa Bəyannaməsi ilə Azərbaycan-Türkiyə münasibətləri ən yüksək zirvəyə yüksəlib. Sənəddə iki ölkənin bundan sonrakı müttəfiqliyinin və işbirliyinin mühüm istiqamətləri öz əksini tapıb. Şuşa Bəyannaməsi müstəqillik, suverenlik, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı, dövlətlərin daxili işlərinə qarışmamaq prinsiplərini rəhbər tutan, milli maraq və mənafelərini müdafiə və təmin etməyə yönəlmiş müstəqil xarici siyasət həyata keçirən hər iki ölkə tərəfindən müttəfiqlik münasibətlərinin qurulmasının siyasi və hüquqi mexanizmlərini müəyyənləşdirmək baxımından da mühüm əhəmiyyət kəsb edir.

*Nardar BAYRAMLI*

# Beynəlxalq birlik Azərbaycana güclü dəstək göstərir




Cənubi Qafqaz regionunda lider dövlət kimi çıxış edən, müstəqil xarici siyasət həyata keçirən Azərbaycan beynəlxalq müstəvidə səmərəli əməkdaşlıq əlaqələrinə malikdir. Respublikamız dünyaya nümunəvi inkişaf modeli təqdim edir. Eyni zamanda, Azərbaycan yaranan yeni çağırışlar qarşısında beynəlxalq həmrəyliyin möhkəmləndirilməsinə güclü səy göstərir, öz nümunəsi ilə dinlər və mədəniyyətlərarası dialoqu təşviq edir, Qlobal Cənubla Qlobal Şimal arasında körpülər yaradır.

Bütün bunların da nəticəsi olaraq dünyada ölkəmizə böyük maraq yaranıb. Beynəlxalq səviyyədə Azərbaycana və onun Liderinə dərin hörmət bəslənildiyi aydın şəkildə müşahidə edilir. Prezident İlham Əliyev iyunun 18-də Bakıda keçirilən İslam İnkişaf Bankı Qrupunun 2026-cı il üzrə İllik Toplantılarının açılış mərasimindəki çıxışında ölkəmizin dünyada nüfuzunun artmasından, leyaqətli dövlət kimi qəbul edilməsindən məmnunluğunu ifadə edərək bildirib ki, müstəqil xarici siyasətimiz beynəlxalq ictimaiyyətin güclü dəstəyini qazanıb.

**BMT-də 155 ölkənin yekdil dəstəyi**

Xoş niyyətə və beynəlxalq prinsiplərə əsaslanan siyasət həyata keçirməsinin nəticəsidir ki, dünyada ölkəmizin dostlarının sayı getdikcə artır. Diqqət çəkən mühüm məqamlardan biri də ondan ibarətdir ki, Azərbaycan İslam dünyasında olduğu kimi, Qərb dünyasında, o cümlədən də Avropa İttifaqı (Aİ) məkanında da böyük məmnuniyyətlə qəbul olunur. Təsadüfi deyildir ki, təkcə son vaxtlarda Prezident İlham Əliyev həm Aİ çərçivəsində, həm də geniş İslam coğrafiyasında baş tutan mühüm beynəlxalq tədbirlərə fəxri qonaq qismində çoxsaylı dəvətlər alıb. Biz qürur duyuruq ki, bu gün müstəqil Azərbaycan sıralarında təxminən 60 ölkəni birləşdirən İslam Əməkdaşlıq Təşkilatının (İƏT) fəal üzvüdür. Eyni zamanda, ölkəmiz Avropa İttifaqının 10 üzvü ilə strateji tərəfdaşlıq haqqında sənədlər imzalayıb. Bu, dünyada çox az rast gəlinən nadir nümunələrdən biridir.

Hazırda Azərbaycanın beynəlxalq təşkilatlarda təmsilçiliyi də yüksək səviyyədədir. Məlumdur ki, bəzi ölkələrin üzv olduqları beynəlxalq təşkilatlarda fəaliyyətləri daim öz umacaqlarını dilə gətirmələri ilə məhdudlaşır. Azərbaycan isə fəqrli nümunə sərgiləyir. Belə ki, ölkəmiz üzv olduğu təşkilatlardan yardımlar ummur, əksinə öz imkanlarını təqdim etməklə onların fəaliyyətinin səmərəliliyinin artmasına davamlı töhfələr verir. Bunu bütün dünya yeni növ koronavirus pandemiyası dönəmində respublikamızın Ümumdünya Səhiyyə Təşkilatına (ÜST) və ehtiyacı olan bir çox ölkələrə göstərdiyi dəstəyin timsalında aydın şəkildə gördü. Ölkəmizin bu qəbildən olan fəaliyyətləri bütün dünyada yüksək qiymətləndirlir. Prezident İlham Əliyev respublikamızın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsini xatırladaraq bildirib: "Dostlarımızın sayı ilbəil artır. Beynəlxalq ictimaiyyətin verdiyi dəstək çox nümunəvi anlarda öz əksini tapır. Məsələn, namizədliyimiz müxtəlif təsisatlar üçün namizədlər siyahısında var idi və biz tam mütləq dəstəyi qazandıq. Bu hal bir neçə il əvvəl BMT-nin Təhlükəsizlik Şurasına namizəd olduğumuz zaman müşahidə edildi. O vaxt biz 155 ölkənin dəstəyini qazandıq".

Şübhəsiz, 2011-ci il oktyabr ayının 24-də BMT Baş Məclisinin plenar iclasında gizli səsvermənin nəticələrinə əsasən, Azərbaycanın 2012-2013-cü illərdə Şərqi Avropa bölgəsini Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasında təmsil edəcək qeyri-daimi üzv seçilməsi və quruma 2012-ci ilin may və 2013-cü ilin oktyabr aylarında Sədrlik etməsi Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən xarici siyasət kursunun məntiqi nəticəsi idi.

Ümumiyyətlə, Azərbaycan BMT TŞ-yə sədrlik müddətini uğurla həyata keçirdi. Bu dövrdə BMT TŞ-də dünyanı narahat edən bir sıra mühüm məsələlər - beynəlxalq terrorçuluqla mübarizə, Suriyadakı vəziyyət və s. aktiv müzakirə olundu. 2012-ci il may ayının əvvəllərində Prezident İlham Əliyevin Sədrliyi ilə keçirilən iclasda müzakirə olunan "Terror aktlarının beynəlxalq sülh və təhlükəsizliyə yaratdığı təhdidlər" mövzusu məhz Azərbaycanın təşəbbüsü ilə gündəliyə daxil edilmişdi. İclasda çıxış edən dövlət başçısı qlobal miqyasda əməkdaşlıq və birgə səy tələb edən terrorçuluqla mübarizənin önəmini qeyd edərək Cənubi Qafqaz regionunda bu problemin başlıca mənbəyi olan Ermənistanın dövlət siyasətinin mahiyyətini də ifşa etmişdi. Beləliklə də, Azərbaycan Prezidenti Ermənistan hakimiyyətinin işğalçı və terrorçu siyasətini ən yüksək kürsüdən aparıcı dünya dövlətlərinin liderlərinin diqqətinə çatdırmışdı.

O da qeyd edilməlidir ki, Azərbaycanın BMT TŞ-nin qeyri-daimi üzvü kimi sərgilədiyi fəaliyyət və atdığı addımlar 2011-ci ilin oktyabrında ölkəmizin quruma üzvlüyünə səs verən 155 ölkənin etimadının doğruldulması deməkdir. Azərbaycan TŞ-dəki fəaliyyəti ilə dünyanın müxtəlif regionlarındakı münaqişələrin aradan qaldırılması üçün göstərilən səylərə verdiyi önəmi nümayiş etdirdi.

**Qoşulmama Hərəkatında uğurlu təmsilçilik**

Azərbaycanın müstəqillik tarixi cəmi 35 ili əhatə edir. Ancaq bu müddətdə ölkəmiz yalnız BMT çərçivəsində deyil, digər beynəlxalq təsisatlarda da böyük uğurlara imza atıb. Respublikamızın həmçinin sıralarında 120 dövləti birləşdirən və BMT-dən sonra ikinci ən böyük beynəlxalq qurum olan Qoşulmama Hərəkatının (QH) sədrliyinə namizədliyi də böyük beynəlxalq dəstək qazanıb. "Biz yekdilliklə seçildik və nəinki seçildik, sonradan sədrliyimiz müddəti yekdilliklə uzadıldı. Bütövlükdə, bu, beynəlxalq dəstəyin təzahürü idi", - deyə dövlətimizin başçısı qürur hissi ilə bildirib.

Ölkəmiz 26 may 2011-ci ildə İndoneziyanın Bali adasında Hərəkata üzv olan dövlətlərin yekdil dəstəyini əldə edərək QH-na tamhüquqlu üzv qəbul olunub. Həmin dövrdən etibarən respublikamız qurumun fəaliyyət istiqamətlərinin genişlənməsinə, ideyalarının təşviqinə və həyata keçirilməsinə özünün sanballı töhfələrini verir. İndiyədək respublikamız QH-nin bir sıra tədbirlərinə uğurla ev sahibliyi edib. Qoşulmama Hərəkatının 2019-cu ildə Bakıda keçirilən 18-ci Sammitinin böyük rəmzi mənası var. Belə ki, Avropa qitəsi 1989-cu il Belqrad Zirvə görüşündən 30 il sonra Qoşulmama Hərəkatında təmsil olunan ölkələrin dövlət və hökumət başçılarının görüşünə yenidən ev sahibliyi edib. Bununla da Azərbaycan Qoşulmama Hərəkatının ruhuna və prinsiplərinə sadiq olduğunu bir daha bütün dünyaya nümayiş etdirib. Qürurverici haldır ki, bu gün Qoşulmama Hərəkatında Azərbaycana və onun Lideri İlham Əliyevə dərin hörmət bəslənilir. Azərbaycanın QH-da artan nüfuzunun nəticəsidir ki, Hərəkata üzv ölkələrin 2016-cı ildə Venesuelada keçirilmiş Zirvə görüşündə quruma 2019-2022-ci illər üzrə sədrliyin respublikamıza həvalə edilməsi barədə yekdil qərar qəbul edilib. Qoşulmama Hərəkatı dövlət və hökumət başçılarının 25-26 oktyabr 2019-cu il tarixlərində Bakıda keçirilmiş 18-ci Zirvə Görüşündə quruma sədrlik Azərbaycana həvalə olunub. Azərbaycanın 3 il müddətinə bu təşkilata sədr seçilməsi, şübhəsiz ki, diplomatiyamızın növbəti qələbəsi olub.

2021-ci ildə isə Qoşulmama Hərəkatının üzvləri Azərbaycana müraciət ünvanlayıb və sədrliyi əlavə bir il müddətinə həyata keçirməyi xahiş ediblər. Azərbaycan da öz növbəsində bu təklifi qəbul edib. Nəticədə, Qoşulmama Hərəkatının xarici işlər nazirlərinin onlayn formatda baş tutan Aralıq Konfransında Hərəkat üzvləri yekdilliklə Azərbaycanın sədrliyinin daha bir il, yəni, 2023-cü ilə qədər uzadılması haqqında qərar veriblər. Bu qərar Hərəkat üzvləri tərəfindən Prezident İlham Əliyevin qlobal liderlik səylərinə verilən yüksək qiymətdir.

Öz növbəsində Qoşulmama Hərəkatına üzvlük və sədrliyin Azərbaycana töhfələri də böyük olub. 2012-ci ildə respublikamızın 155 ölkənin səsini əldə edərək BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə seçilməsində QH-na üzv dövlətlərin dəstəyi də öz rolunu oynayıb. Azərbaycan həmçinin Qoşulmama Hərəkatından ölkəmizin həqiqətlərinin beynəlxalq birliyin diqqətinə çatdırılması üçün səmərəli bir platform kimi istifadə edir. İndiyədək ölkəmizin keçmiş Qarabağ münaqişəsi ilə bağlı mövqeyi Hərəkatın sənədlərində daim dəstəklənib. Qoşulmama Hərəkatının Azərbaycana siyasi dəstəyinin bariz nümunəsi olaraq isə Vətən müharibəsi dövründə BMT Təhlükəsizlik Şurasının daimi üzvləri olan ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin hazırladıqları bəyanat layihəsini geri götürməyə məcbur olmalarını göstərmək mümkündür. Həmçinin 2020-ci və 2022-ci illərdə BMT Təhlükəsizlik Şurasında Azərbaycana qarşı irəli sürülmüş qərəzli təşəbbüslərin qarşısı Hərəkata üzv dövlətlər tərəfindən alınıb.



**Əla nəticələrlə yekunlaşan COP29 və WUF13 tədbirləri**

Azərbaycan öz nümunəsində yalnız sülhə çağırış təşəbbüsləri irəli sürməklə kifayətlənmir, eyni zamanda, qlobal dialoq məkanı qismində çıxış edir. Ölkəmizdə yüksək standartlar səviyyəsində keçirilən müxtəlif tədbirlər dünyanı bir araya gətirməyə xidmət edir. İndiyədək Azərbaycan bir sıra mötəbər beynəlxalq tədbirlərə böyük uğurla ev sahibliyi edib. Bu sırada "Eurovision - 2012"-ni, Birinci Avropa Oyunlarını, IV İslam Həmrəyliyi Oyunlarını, Beynəlxalq Astronavtika Konqresini xatırlaya bilərik. Ölkəmizin son vaxtlarda ev sahibliyi etdiyi iki beynəlxalq tədbirin miqyası isə daha böyükdür. Söhbət Azərbaycanın məsuliyyətlə hazırlaşdığı COP29 və WUF13 tədbirlərindən gedir. Həmin tədbirlərin uğurla keçdiyini xatırladan Prezident İlham Əliyev " İslam İnkişaf Bankı Qrupunun 2010-cu ildə keçirdiyi İllik Toplantısından sonra biz bir çox beynəlxalq tədbirlərə uğurla ev sahibliyi edən ölkə olmuşuq. Ən sonuncular arasında əla nəticələrlə seçilən 2024-cü ildə keçirilmiş uğurlu COP29 tədbirini qeyd etmək istərdim. Eyni zamanda, böyük beynəlxalq toplantılardan olan Ümumdünya Şəhərsalma Forumu ötən ay Azərbaycanda uğurla keçirilmişdir. Bir çox digər tədbirlər də gözlənilir"- deyə vurğulayıb.

Şübhəsiz ki, beynəlxalq ictimaiyyət Bakıda baş tutan hər iki tədbirin təəssüratlarını uzun müddət unutmayacaq. Məsuliyyətli dövlət olan Azərbaycanın ev sahibliyi ilə keçirilən COP29 tarixə nümunəvi bir tədbir kimi düşüb. Azərbaycanın COP29-a yüksəksəviyyəli hazırlıqlar görməsi və Bakıda yaxşı nəticələrin əldə olunması respublikamızın gücünün və məsuliyyətinin təsdiqi ilə yanaşı, həm də ölkəmizin iqlim çağırışlarına çox həssas yanaşmasının bariz ifadəsidir.Respublikamız hər zaman öz gündəliyini qlobal çağırışlarla uzlaşdırıb. O cümlədən Azərbaycan iqlim dəyişiklikləri ilə bağlı qlobal çağırışları dəstəkləyən və buna öz töhfələrini verən dövlətdir. Eyni zamanda, Azərbaycan istehsalatda geniş ekoloji hədəflər müəyyənləşdrən ölkələr sırasında yer alır. Respublikamızı təmsil edən SOCAR 2035-ci ilə qədər "Sıfır metan" hədəfinə yaxınlaşmanın və 2050-ci ilə qədər "Xalis sıfır" hədəflərinə çatmanın şirkətin əsas məqsədlərindən olduğunu bildirib. Bundan başqa, respublikamızda zəngin potensiala əsaslanmaqla "yaşıl enerji"yə keçid də uğurlu bir prosesə çevrilib.

Azərbaycanın bu kimi reallıqları, həmçinin dövlətin qətiyyətli siyasi iradəsi COP29-da substantiv nəticələrin əldə olunmasına güclü şəkildə təsir göstərib. Hər il inkişaf etməkdə olan ölkələrə 1,3 trilyon dollar iqlim maliyyəsini yönəltməyi nəzərdə tutan yeni öhdəlik olan Bakı Maliyyə Məqsədi (BMG) barədə razılığın əldə olunmasını COP29-un mühüm uğurlarından biri kimi dəyərləndirrmək mümkündür. Bakı Maliyyə Məqsədi, inkişaf etmiş ölkələrin 2035-ci ilə qədər inkişaf etməkdə olan dövlətlər üçün hər il ən azı 300 milyard dollar məbləğində vəsaitin səfərbər olunmasına rəhbərlik etməsini nəzərdə tutan əsas hədəfləri müəyyənləşdirir. Xatırladaq ki, bu göstərici əvvəllər 100 milyard dollar olub. Eləcə də, İtki və Zərər Fondunun tam şəkildə institutlaşdırılması böyük nailiyyətdir.

Cari ilin may ayında Bakının ev sahibliyi etdiyi WUF13 tədbiri Mərkəzi Asiya və Cənubi Qafqaz regionunda ilk dəfə baş tutub. 176 ölkədən 58 mindən artıq iştirakçının qatıldığı bu tədbir indiyədək keçirilmiş ən böyük Ümumdünya Şəhərsalma Forumu kimi tarixə düşdü. Azərbaycan ev sahibi ölkəsi olaraq bu platforma üzərindən özünün nümunəvi şəhərsalma təcrübəsini dünyaya təqdim etmək imkanı qazandı. Paytaxtımızda qəbul edilən "Bakı Fəaliyyətə Çağırış" sənədi beynəlxalq birlik üçün böyük önəm daşıyır. Sənəddə 30 ili əhatə edən işğal dövründə ölkəmizin də məruz qaldığı urbisid, kultursid və ekosid kimi anlayışlara xüsusi vurğu edilir ki, bu da dünyaya bir çağırışdır. Tədbir çərçivəsində təqdim edilən "Bakı Şəhər Mükafatı"nı isə Azərbaycanın şəhər idarəçiliyi və urbanizasiya sahəsində beynəlxalq təşəbbüskar rolunu gücləndirməyə hesablanmış addımlardan biri kimi qiymətləndirmək mümkündür.

*Mübariz ABDULLAYEV*

# Milli Məclisin sədri Ayətullah Seyid Əli Xameneinin vida mərasimində iştirak edib

Milli Məclisin sədri Sahibə Qafarovanın rəhbərlik etdiyi Azərbaycan Respublikasının nümayəndə heyəti iyulun 3-də İran İslam Respublikasının sabiq Ali Rəhbəri Ayətullah Seyid Əli Xameneinin vida mərasimində iştirak etmək üçün bu ölkəyə səfərə gedib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, Tehranın Mehrabad beynəlxalq hava limanında nümayəndə heyətini İran İslam Şurası Məclisi sədrinin müavini Əli Nikzad, ölkəmizin İrandakı səfiri Əli Əlizadə və protokol əməkdaşları qarşılayıblar. Sonra spiker Sahibə Qafarovanın başçılığı ilə Azərbaycan Respublikasının nümayəndə heyəti Tehranın Mosallah kompleksində keçirilən vida mərasimində iştirak edib.

Tədbirdə Milli Məclisin sədri İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkian, İran İslam Respublikası İslam Şurası Məclisinin sədri Məhəmməd Baqer Qalibaf və digər rəsmilərlə görüşərək, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından başsağlığı ifadə edib, Azərbaycan xalqının dərin hüzn və ehtiramını İran xalqına çatdırıb.

Qeyd edək ki, Azərbaycan nümayəndə heyətinin tərkibinə Baş nazirin müavini Şahin Mustafayev, Milli Məclis sədrinin müavini Ziyafət Əsgərov, xarici işlər nazirinin müavini Samir Şərifov, Naxçıvan Muxtar Respublikasının Baş naziri Cabbar Musayev və digər rəsmilər daxildir.



# Dövlət satınalmalarında yenilik

## Tenderlərdə süni intellekt tətbiq olunur




Azərbaycanda dövlət satınalmaları sahəsində bir sıra yeniliklər nəzərdə tutulur ki, əsas istiqamətlərdən biri tenderlərlə bağlı yeni alətlərin tətbiqidir. Antiinhisar və İstehlak Bazarına nəzarət Dövət Agentliyi dövlət satınalmaları prosesində, eləcə də tenderin bir sıra mərhələlərdə süni intellektin tətbiqini nəzərdən keçirir. Yeni dəyişikliklərə əsasən, satınalmalarda şərtlər toplusu süni intellekt vasitəsilə yoxlanılmağa başlanılacaq. Belə ki, şərtlər toplusunun süni intellekt vasitəsilə rəqabət, satınalmaya çıxış və sənədin tam və düzgün doldurulması istiqamətində yoxlanılması, yoxlama zamanı 6 meyar üzrə strukturlaşdırılmış təhlilin aparılması və hesabatın hazırlanması nəzərdə tutulur.

Dünya təcrübəsində geniş yayılmış satınalmalarda süni intellekt modulları xərcləri optimallaşdırmaq, təchizat zəncirindəki riskləri qabaqcadan müəyyən etmək və tenderlərdə qərarların qəbulunu avtomatlaşdırmaq üçün istifadə edilir. Bu texnologiya xarici müdaxilələrin və subyektiv qərarların qarşısını alır, şəffaflığı artırır və dövlət vəsaitlərinin daha səmərəli xərclənməsini təmin edir. Məhz bu reallıqları nəzərə alan Azərbaycan hökuməti tender və satınalmalarda rəqəmsallaşma və süni intellektin tətbiqi istiqamətində ciddi addımlar atmağa qərar verib.

**Bazar qiymətləri və məlumatlar real vaxt rejimində təhlil ediləcək**

Süni intellekt əsaslı rəqəmsal təhlillər bazar qiymətlərini və məlumatları real vaxt rejimində təhlil etmək və sərfəli təklifləri müəyyən etmək baxımından mühüm əhəmiyyət kəsb edir. Eyni zamanda, risklərin idarə olunmasında vacib alətə çevrilir. Tərəfdaşların maliyyə vəziyyətini, çatdırılma tarixçəsini və potensial riskləri izləyərək təchizatçıların etibarlılığının qiymətləndirilməsinə kömək edir. Bu baxımdan süni intellektin köməyi ilə satınalmalarda iş həcmləri cədvəlində məhdudlaşdırmaların olması ilə bağlı ayrıca təhlilin aparılması, potensial uyğunsuzluqların və riskli məqamlarla bağlı satınalma komissiyasına məlumatların verilməsi təmin ediləcək. Yeni texnologiyalardan istifadənin köməyilə tender proseslərində təchizatçı tərəfindən təklifin qüvvədə olma müddətini uzatmaq imkanı da yaradılır. Belə ki, satınalmada iştirak edən təchizatçılar üçün təklifin qüvvədə olma




müddətini elektron qaydada dəyişmək imkanı, yenilənmiş qüvvədə olma müddətinin və təminat məlumatlarının təqdim edilməsi, təminat tarixləri yenilənmiş müddəti əhatə etmədikdə xəbərdarlıq mesajının göstərilməsi, satınalan təşkilat və təchizatçılara təkliflərin qüvvədə olma müddəti və zəmanət üzrə dəyişiklik tarixçəsinin saxlanılması və izlənməsi də təmin ediləcək. Ən mühüm məqamlardan biri olan qiymətləndirmə mərhələsində yenilənmiş təklif müddəti əsasında yoxlamaların aparılması da bu proseslərə aid olunur.

Satınalmalarda müqavilələr modulu da yenilənib, satınalan təşkilatlar və təchizatçılar üçün müqavilələr vahid cədvəl üzərindən idarə olunacaq. Sistemdə axtarış və genişləndirilmiş axtarış imkanlarının təkmilləşdirilməsi imzalanmış müqavilələrin nəzərdən keçirilməsi və dərc edilməsi üzrə yeni funksionallığın təmin olunmasında mühüm rol oynayacaq. Bundan başqa, müqavilələr səhifəsində istifadəçi interfeysi yenilənəcək, satınalma kartlarında müqavilə ilə bağlı məlumatlar və indikatorlar əks olunacaq. Yekunlaşmış satınalmada isə müqavilələr əlavə hissədə yerləşdiriləcək.

**"E- müqavilə" rəqəmsal dövlət maliyyəsi sisteminə inteqrasiya olunub**

Qeyd edək ki, bir müddət əvvəl dövlət satınalmaları sahəsində hesabatlılığın artırılması, proseslərin sadələşdirilməsi və rəqəmsallaşdırmanın genişləndirilməsi məqsədilə "etender.gov.az" portalında da bir sıra mühüm yeniliklər tətbiq edilib. Yeniliklərdən biri elektron müqavilə şərtlərinin formalaşdırılması ilə bağlıdır. Belə ki, artıq satınalma prosesinin başlanğıc mərhələsində elektron müqavilə şərtləri birbaşa sistem üzərindən formalaşdırılır. Bu, hüquqi və texniki şərtlərin daha dəqiq müəyyən edilməsinə imkan yaradır. Müqavilələrin elektron imzalanmasının təşkili məqsədilə dövlət satınalmalarının vahid internet portalı ilə Maliyyə Nazirliyinin Rəqəmsal dövlət maliyyəsi sisteminin "e-müqavilə" altsistemi arasında inteqrasiya həyata keçirilib. İnteqrasiyaya əsasən, yekunlaşmış satınalmalar üzrə müqavilə, təklif barədə məlumatlar nazirliyin sisteminə ötürülür və müqavilələrin imzalanması "e-müqavilə" altsistemi üzərindən aparılır. Bununla da müqavilələrin icrasına nəzarət mexanizmi optimallaşdırılır. Müqavilə barədə məlumatlar isə müqavilə imzalandıqdan sonra Dövlət satınalmalarının vahid internet portalına ötürülür.




Portalda aparılmış təkmilləşdirmələrə əsasən, satınalan təşkilatlar satınalma predmetlərinin adını, miqdarını və ölçü vahidini ayrıca müəyyən edir, təchizatçılar isə müvafiq olaraq mənşə ölkəsi, marka, model və digər zəruri məlumatları daxil edirlər. Bu məlumatlar sonradan müqavilənin ayrılmaz hissəsinə çevrilir və dəyişdirilə bilmir. Bununla yanaşı, şərtlər toplusu təsdiqləndikdən sonra müqavilənin ümumi şərtləri sistem tərəfindən avtomatik formalaşdırılır və satınalmanın tərkib hissəsi kimi təqdim olunur. Aksept prosesi ilə bağlı tətbiq edilmiş yenilik isə müvafiq bildirişlərin sistem tərəfindən avtomatik generasiya edilərək qalib təchizatçıya göndərilməsini təmin edir.

**Məqsəd hesabatlılığın artırılması, rəqabət mühitinin gücləndirilməsidir**

Portalda tətbiq edilən növbəti funksionallıq nəzarət orqanı tərəfindən məlumat və tövsiyə xarakterli rəsmi bildirişlərin göndərilməsi ilə bağlıdır. Bu mexanizm vasitəsilə satınalma prosesinin bütün iştirakçılarına bildirişlər mərkəzləşdirilmiş qaydada və operativ şəkildə çatdırılır. Eyni zamanda, istifadəçilərin bu bildirişlərlə tanış olmadan sistemdə fəaliyyətini davam etdirməsi məhdudlaşdırılır ki, bu da vacib məlumatların diqqətdən kənarda qalmasının qarşısını alır və prosesdə intizamı gücləndirir.

Daha səmərəli dövlət satınalmaları sistemi isə davamlı iqtisadi inkişaf hədəflərinə çatmaq üçün vacib faktorlardan biridir. Bu məqsədlə satınalma prosesinin elektronlaşdırılmasının daha da gücləndirilməsi, süni intellekt texnologiyalarının geniş tətbiqi ilə bağlı addımlar davam etdiriləcək,

Ümumilikdə, dövlət satınalmalarında tətbiq edilən yeniliklər satınalmalarda hesabatlılığın artırılmasına, rəqabət mühitinin gücləndirilməsinə və proseslərin daha səmərəli təşkilinə nail olmaq məqsədi daşıyır. Tətbiq edilən dəyişikliklər satınalmalar zamanı dövlət vəsaitindən daha səmərəli və qənaətlə istifadə edilməyə gətirib çıxaracaq, şəffaflığı artıracaq və bütün malgöndərənlərə (podratçılara) bərabər rəqabət mühiti yaradılmasına səbəb olacaq. Həmçinin, biznes islahatlarının tərkib hissəsi olmaqla, xarici investisiyaların ölkəyə gəlməsinə müsbət təsir göstərə bilər.

***E.CƏFƏRLİ***

# İcbari tibbi sığortada rəqəmsal dövr...

## Yeni dəyişikliklər şəffaflığı və əlçatanlığı gücləndirəcək




İcbari tibbi sığorta şəhadətnaməsi elektron formada müvafiq elektron informasiya sistemində yaradılacaq. Sözügedən məsələ "Tibbi sığorta haqqında" və "Əlilliyi olan şəxslərin hüquqları haqqında" qanunlara təklif edilən dəyişiklik layihəsində əksini tapıb. Layihəyə əsasən, "Tibbi sığorta haqqında" qanuna icbari tibbi sığorta fondu anlayışının əlavə edilməsi nəzərdə tutulur.



Bununla bərabər icbari tibbi sığortanın tətbiqi ilə bağlı əməliyyatların müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın informasiya sistemi vasitəsilə elektron qaydada həyata keçirilməsinin hüquqi əsaslarının müəyyən edilməsi, o cümlədən, sığortaolunanlara ambulator şəraitdə istifadə olunan dərman vasitələrinin aptek təşkilatları tərəfindən həmin informasiya sisteminə ötürülmüş elektron resept əsasında buraxılması təklif edilir.

Bildirilib ki, layihənin qəbul edilməsi nəticəsində icbari tibbi sığorta sahəsində elektron xidmətlərin hüquqi əsaslarının təkmilləşdirilməsi, ambulator şəraitdə istifadə olunan dərman vasitələrinin elektron resept əsasında verilməsinin qanunvericiliklə tənzimlənməsi və icbari tibbi sığorta şəhadətnaməsinin elektron formada yaradılması təmin ediləcək. Habelə əlilliyi olan şəxslərin reabilitasiya imkanlarının qiymətləndirilməsi ilə bağlı hüquqi tənzimləmə reabilitasiya xidmətlərinin göstərilməsi sahəsində səlahiyyətlərin yenidən bölgüsünə uyğunlaşdırılacaq.

**Elektron reseptlərlə müalicəyə nəzarət daha effektiv olacaq**

Mövzu barədə "Yeni Azərbaycan"a açıqlama verən terapevt-həkim Şahvələd Məmmədov bildirib ki, icbari tibbi sığorta şəhadətnaməsinin elektron formada yaradılması və elektron resept sisteminin qanunvericilik səviyyəsində təsbit olunması səhiyyə sisteminin rəqəmsallaşması istiqamətində atılan ən əhəmiyyətli addımlardan biri hesab oluna bilər. Həkim qeyd edib ki, bu dəyişikliklər təkcə sənəd dövriyyəsinin sadələşdirilməsi demək deyil, eyni zamanda xəstələrin tibbi xidmətlərə çıxışının daha operativ, təhlükəsiz və şəffaf şəkildə təmin olunmasına xidmət edir:

"Elektron şəhadətnamənin tətbiqi sayəsində vətəndaşın kağız sənədi itirməsi, onun yenilənməsi və ya müxtəlif qurumlara təqdim olunması ilə bağlı yaranan vaxt itkisi minimuma enəcək. Bütün məlumatlar vahid informasiya sistemində təhlükəsiz şəkildə saxlanılacaq və bu da həm pasiyent, həm də tibb işçiləri üçün prosesi xeyli asanlaşdıracaq.

Xüsusilə, elektron resept sisteminin hüquqi əsaslarının möhkəmləndirilməsi praktik tibbdə çox mühüm əhəmiyyət daşıyır. Çünki həkim tərəfindən təyin olunan dərman vasitələri birbaşa elektron informasiya sisteminə ötürüləcək, apteklər isə həmin resept əsasında dərmanı pasiyentə təqdim edəcəklər. Bu yanaşma reseptlərin saxtalaşdırılması riskini azaldacaq, dərman təyinatlarının izlənilməsini asanlaşdıracaq, həmçinin pasiyentin hansı preparatları qəbul etdiyinin vahid bazada əks olunmasına imkan verəcək. Nəticədə müalicənin davamlılığı təmin ediləcək, təkrar və ya bir-biri ilə uyğun gəlməyən dərman təyinatlarının qarşısının alınması baxımından da daha effektiv nəzarət mexanizmi formalaşacaq".

**Şəffaf və operativ səhiyyə idarəçiliyinə doğru addım...**

Ş.Məmmədovun sözlərinə görə, bu dəyişikliklərin digər mühüm tərəfi ondan ibarətdir ki, icbari tibbi sığorta sahəsində bütün əməliyyatların elektron platforma üzərindən həyata keçirilməsi həm tibbi xidmət göstərən müəssisələrin, həm də dövlət qurumlarının fəaliyyətində şəffaflığı artıracaq:

"Vətəndaş hansı tibbi xidmətdən istifadə etdiyini, hansı xidmətlərin sığorta hesabına qarşılandığını, reseptlərinin vəziyyətini və digər məlumatları daha rahat izləyə biləcək. Bu isə səhiyyə sisteminə ictimai etimadın güclənməsinə və resursların daha səmərəli idarə olunmasına müsbət təsir göstərəcək.




Əlilliyi olan şəxslərlə bağlı hüquqi tənzimləmələrin reabilitasiya xidmətlərinin göstərilməsi sahəsində yeni səlahiyyət bölgüsünə uyğunlaşdırılması da xüsusi əhəmiyyət daşıyır. Tibbi reabilitasiya yalnız müalicənin davamı deyil, insanın gündəlik həyata, əmək fəaliyyətinə və sosial həyata daha rahat inteqrasiyasını təmin edən mühüm mərhələdir. Hüquqi mexanizmlərin müasir idarəetmə modelinə uyğunlaşdırılması bu kateqoriyadan olan vətəndaşların ehtiyaclarının daha dəqiq qiymətləndirilməsinə, onlara fərdi yanaşmanın gücləndirilməsinə və reabilitasiya xidmətlərinin keyfiyyətinin yüksəldilməsinə şərait yaradacaq.

Ümumilikdə hesab edirəm ki, təklif olunan dəyişikliklər gələcəyin rəqəmsal səhiyyə modelinin formalaşdırılması baxımından mühüm islahatlardır. Elektron şəhadətnamə, elektron resept və vahid informasiya sistemi vasitəsilə idarə olunan icbari tibbi sığorta modeli həm həkimlərin iş yükünü optimallaşdıracaq, həm pasiyentlərin xidmətlərə çıxışını asanlaşdıracaq, həm də səhiyyə sahəsində məlumatların daha dəqiq və operativ idarə olunmasına imkan verəcək. Uzunmüddətli perspektivdə bu addımlar daha keyfiyyətli tibbi xidmət, daha rasional maliyyə idarəçiliyi və vətəndaş məmnunluğunun artması ilə nəticələnə bilər".

***Yeganə BAYRAMOVA***





# ABŞ qoşunlarını geri çəksə...

## Avropa ümidini Ankara sammitinə bağlayıb

NATO-nun Ankara sammiti öncəsi ABŞ ilə Avropa arasında yenidən gərginlik müşahidə olunmaqdadır. Belə ki, Pentaqon Avropada hərbi kontingentin ixtisarı üzrə yeni plan hazırlayır. Xatırladaq ki, hələ iyun ayında ABŞ müdafiə naziri Pit Heqset NATO-nu Avropadakı Amerika qoşunlarının sayının daha da azaldılması barədə məlumatlandırmağı planlaşdırırdı, lakin bu fikir sonradan rədd edildi. The Wall Street Journal öz mənbələrinə istinadən xəbər verir ki, Heqset ötən ay NATO-nun yüksək hərbi rəhbərliyi ilə görüşdə ABŞ-ın Avropadakı qüvvələrində daha da azaltmalara hazırlaşdığını elan etmək üçün Brüsselə getməyi planlaşdırırdı.

Lakin məqalədə bildirilir ki, Heqsetin təklifi Prezident Trampın həm də milli təhlükəsizlik üzrə müşaviri səlahiyyətlərini icra edən Dövlət katibi Marko Rubioya və digər yüksək vəzifəli şəxslərə açıqlandıqdan sonra rədd edilimişdi. Heqsetin İstanbulda keçiriləcək sammit zamanı NATO-nun hərbi rəhbərlərinə ABŞ-ın Avropada qoşun sayının əlavə azaldılmasına hazırlaşdığını bildirmək niyyətində olduğu qeyd edilir. Vurğulanır ki, Höqsetin təklifləri Avropadakı müttəfiqləri və aparıcı respublikaçı konqresmenləri narahat edib. Xüsusilə, onlar bu cür hərəkətlərin NATO-ya zərər verəcəyindən və yalnız Rusiyaya kömək edəcəyindən qorxurlar.

**Say azaldılır...**

Qeyd edək ki, Ankara sammitində ABŞ prezidenti Donald Trampın NATO liderləri ilə görüşündə əsas müzakirə predmetlərindən birinin Amerika qoşunlarının sayı və müttəfiqlərin hərbi xərclərinin olacağı gözlənilir. WSJ əlavə edir ki, Avropadakı Amerika qoşunlarının sayının daha da azaldılması perspektivi hələ də aktualdır. Höqset və onun baş siyasət köməkçisi Elbrik Kolbi Avropada yerləşdirilən Amerika qoşunlarının sayını azaltmaq səylərində xüsusilə israrlıdırlar. Artıq uzun müddət idi ki, bu məsələ prioritet kimi ön plana çəkilirdi. İranla müharibə Heqset və Kolbiyə qoşun yerləşdirmələrini yenidən nəzərdən keçirmək üçün yeni bir fürsət təqdim etdi.

**Heqsetin planı...**

Qeyd edək ki, iyunun 18-də Heqset ABŞ-ın Avropadakı qoşun səviyyələrini yenidən nəzərdən keçirməyə başladığını elan etdi və NATO müttəfiqlərini "öz təhlükəsizlikləri üçün daha çox məsuliyyət daşımadıqlarına" görə tənqid etdi. ABŞ Prezidenti Donald Tramp isə ABŞ-ın NATO-dan çıxmasını düşündüyünü və sonradan bu fikir ayrılıqlarını Qrenlandiyanı ilhaq etmək təklifi ilə əlaqələndirdiyini bildirdi. CNN-in xəbər verdiyi kimi, vəziyyət NATO-nun baş katibi Mark Rutte ilə Tramp arasında gərgin danışıqlarla daha da gərginləşdi və bundan sonra Amerika liderinin müttəfiqlərin İrana qarşı mövqeyindən "açıq-aşkar məyus" olduğu məlum oldu.

Eyni zamanda, ABŞ-ın Avropadakı mövcudluğu ilə bağlı ciddi qeyri-müəyyənlik yarandı: Pentaqon Şərqi Avropadan 10.000-ə qədər əsgərin geri çəkilməsi məsələsini nəzərdən keçirməyə başladı və sonradan Vaşinqtonun "NATO qüvvələri modelinə" hərbi töhfəsini kəskin şəkildə azaltmaq planları barədə məlumatlar ortaya çıxdı.

NATO sakitliyə çağırarkən və Avropanın artıq Trampın təhlükəsizlik xərclərinin artırılması ilə bağlı maliyyə tələblərini yerinə yetirdiyini bildirərkən, Avropa liderləri bu məsələ ilə bağlı birgə cavab hazırlayırlar.

**ABŞ nələri geri çəkir?**

O ki qaldı ki, kontingentin hansı parametrlər üzrə azaldılmasına, ABŞ kreyser və esmineslərinin təxminən yarısını, F-16 qırıcılarının üçdə birini və bütün uzunmənzilli kəşfiyyat dronlarını geri çəkmək niyyətindədir. Bu barədə Almaniyanın Welt qəzeti Amerika nümayəndələri tərəfindən alyansa təqdim edilən məxfi siyahıya istinadən məlumat yayıb. Qəzetin dediyi kimi, siyahı NATO üçün "böyük siyasi bomba" ehtiva edir və avropalılar üçün "acı həb" olacaq. Azaltmalar əsasən Sürətli Reaksiya Qüvvələrinin əvvəlki strukturunu əvəz edən sözdə NATO Qüvvə Modelinə təsir edəcək. Bu model hansı və neçə ittifaq qüvvəsinin ən tez - 10 gün ərzində, 10-30 gün ərzində və maksimum altı ay ərzində yerləşdirilə biləcəyini müəyyən edir. Quru, dəniz və hava qüvvələrinin imkanları belə qiymətləndirilir.

Siyahıya görə, amerikalılar iştiraklarını aşağıdakı kimi azaltmağı planlaşdırırlar:

Qırıcılar: Pentaqon tərəfindən təmin edilən 99 F-16-dan 63-ü qalacaq və 54 əvəzinə 36 F-15E qırıcısından istifadə ediləcək.

Dronlar: ABŞ bütün uzaqmənzilli kəşfiyyat dronlarını geri çağırır və MQ-9 Reaper kəşfiyyat və hücum dronlarının sayını təxminən yarıya qədər azaldır.

Bombardmançı eskadrilyalar: Belə iki eskadrilyadan biri ləğv ediləcək.

Təyyarə tankerləri: Səkkiz müasir KC-46 hava tankerinin hamısı geri çəkiləcək və hazırda NATO-da 71-i olan köhnə KC-135-lərdən 63-ü qalacaq.

Donanmalar: İki aviadaşıyıcı zərbə qrupundan biri, kreyser və esmines qruplarının demək olar ki, yarısı ilə birlikdə NATO-dan çıxarılacaq; Sualtı raket buraxılış imkanları planlardan tamamilə çıxarılacaq və Boeing P-8A Poseidon patrul təyyarələrinin sayı 26-dan 15-ə endiriləcək.

**Cəmisi 3 gün qaldı...**

"Die Welt"in məlumatına görə, bir çox əsas elementin yarıya və ya hətta tamamilə azaldılması Avropa üçün əhəmiyyətli problemlər yaradacaq və itkin düşmüş imkanları təkbaşına kompensasiya edə biləcəyi sualını doğuracaq. Bildirilir ki, Amerika dronlarının geri çəkilməsi, ehtimal ki, "ciddi zərbə" olacaq, çünki Avropa bu sahədəki imkanlarını yeni-yeni formalaşdırmağa başlayır. Nəşrin məlumatına görə, əsas məsələlərdən biri avropalıların növbəti addımları barədə razılığa gəlməli olduqları müddət olacaq. Sazişin 7-8 iyul tarixlərində Ankarada keçiriləcək NATO Dövlət və Hökumət Başçıları Zirvə Toplantısında elan ediləcəyi gözlənilir. Bu o deməkdir ki, alyansın bütün fikir ayrılıqlarını həll etmək üçün cəmi bir neçə günü var.

**NATO-nun hansı cinahı daha çox zəifləyəcək?**

NATO müdafiə nazirliklərində müzakirələr iyunun ortalarından başlayıb. Bir hərbçi rəsmi qəzetə verdiyi şərhdə nikbinlik ifadə edərək, azalmaların şərq cinahından daha çox şimal və cənuba təsir etdiyini qeyd edib. Ekspertlər bildirirlər ki, geri çəkiləcək Amerika silahlarının siyahısı NATO-nun Atlantik okeanında və cənub cinahında imkanlarını şərq cinahından daha çox zəiflədəcək.

FT xəbər verir ki, ABŞ-ın Avropa müttəfiqləri bəzi Aİ siyasətçilərinin xəbərdarlıq etdiyi kimi, Rusiya ilə mümkün gələcək qarşıdurma fonunda əsas hərbi qüvvələrin geri çəkilməsi ilə bağlı Vaşinqtondan aydınlıq istəyirlər. Qəzet bir avropalı rəsmidən sitat gətirir ki, "Hələ də bu ixtisarların iki, üç və ya beş il ərzində baş tutacağını bilmirik".

***P.İSMAYILOV***



# Donald Tramp məmnun görünür

## ABŞ Prezidenti hesab edir ki, Vaşinqton bütün məqsədlərinə çatıb

ABŞ-la İran arasında Anlaşma Memorandumu imzalandıqdan sonra danışıqlar prosesində durğunluq yaranıb. Lakin "Əl Ərəbiyə" telekanalının mənbələrinin bildirdiyinə görə, Dohada ABŞ ilə İran arasında dolayı texniki danışıqlar davam edir. Qətər və Pakistan bu danışıqlarda vasitəçi qismində çıxış edir. İran nümayəndə heyəti Pakistan vasitəçiliyi, ABŞ nümayəndə heyəti isə Qətər vasitəçisi ilə danışıqlara başlayıb.

**Dolayı danışıqlar nə vəd edir?**

"Reuters" əvvəllər müzakirələrdən birbaşa xəbərdar olan mənbəyə istinadla ABŞ nümayəndələri Stiv Uitkoff və Cared Kuşnerin çərşənbə axşamı keçirilən texniki sessiyalar üçün zəmin yaratmaq məqsədilə Qətərin Baş naziri ilə görüşdüklərini, lakin danışıqlarda özlərinin iştirak etmədiklərini bildirib. Ayrıca olaraq, İranın yüksəkvəzifəli rəsmisi iyulin 1-də "Reuters"ə bildirib ki, Tehran və Vaşinqton arasında dolayı danışıqlar Dohada davam edir. O, müzakirələrin Tehranın vəsaitlərinin ayrılması və Hörmüz boğazı ilə bağlı olduğunu əlavə edib. "İran Qətər və Pakistan rəsmiləri ilə görüşlər keçirib və onlar, öz növbəsində, ABŞ tərəfi ilə görüşüblər. Dolayı danışıqlar çərşənbə günü davam edib və İranın dondurulmuş aktivləri, Hörmüz boğazı məsələlərinə diqqət yetirilib", - deyə İran rəsmisi bildirib.

Qətər Xarici İşlər Nazirliyinin sözçüsü Məcid əl-Ənsari də bəyan edib ki, Dohada ABŞ və İran nümayəndələri arasında Qətər və Pakistanın vasitəçiliyi ilə keçirilən dolayı danışıqlarda müəyyən irəliləyiş əldə olunub. Onun sözlərinə görə, Qətər və Pakistan vasitəçiləri ABŞ və İran nümayəndələri ilə ayrı-ayrılıqda görüşlər keçiriblər. O bildirib ki, tərəflər müzakirə olunan məsələlər üzrə müsbət irəliləyiş əldə ediblər. XİN-in sözçüsü qeyd edib ki, tərəflər danışıqların yaxın vaxtlarda davam etdirilməsi barədə razılığa gəliblər. Növbəti görüşün tarixi əlavə məsləhətləşmələrdən sonra müəyyənləşdiriləcək.

Vaşinqton isə hesab edir ki, artıq həll olunmuş məsələlər qarşıdakı gündəliklə üst-üstə düşməməlidir. ABŞ və İranın İslamabad Anlaşma Memorandumunun həyata keçirilməsini irəli aparmaq üçün iyulun üçüncü həftəsində Dohada növbəti birbaşa danışıqlar raundunun keçirilməsi gözlənilir. Bu barədə Pakistan hökumətindəki mənbələr Anadolu agentliyinə bildiriblər. Mənbələr deyiblər ki, danışıqların Livan və Hörmüz boğazındakı dəyişən vəziyyətə yönəlməsi gözlənilir. Vasitəçilik prosesinə yaxın mənbənin sözlərinə göə, Pakistan və Qətər vasitəçiləri bütün gözlənilən məsələləri həll etmək üçün birbaşa danışıqları bərpa etmək məqsədilə hər iki tərəflə daim əlaqə saxlayırlar. O əlavə edib ki, Vaşinqton danışıqlara hazırdır, Tehran da müsbət cavab verib.

**Seyid Əli Xameneinin dəfn mərasimindən sonra...**

Mənbə bildirib ki, İran Seyid Əli Xameneinin dəfn mərasimindən sonra danışıqları bərpa etmək barədə işarə edib. Pakistan Xarici İşlər Nazirliyi də verdiyi açıqlamada bəyan edib ki, tərəflər növbəti görüşün Xameneinin dəfn mərasimindən sonra ən qısa zamanda təyin olunması, qarşıdakı dövrdə müzakirələrin davam etdirilməsi barədə razılığa gəliblər.



Prezident Donald Tramp isə hazırkı vəziyyətdən məmnun görünür. O, CNBC telekanalına müsahibəsində bildirib ki, ABŞ İranla danışıqlarla demək olar ki, bütün məqsədlərinə çatıb. Trampın sözlərinə görə, İran danışıqlar zamanı Amerikaya lazım olan hər şeyə razılıq verib. Ağ Ev rəhbəri İrana qarşı illərlə hərbi kampaniya aparmaq istəyinin olmadığını əlavə edib: "Biz 19 ildir Vyetnamda, təxminən 10 ildir Əfqanıstandayıq. Koreyada əbədi müharibə apardıq. Birinci və İkinci Dünya müharibələrindən ümumiyyətlə bəhs etmək istəmirəm. Biz bu müharibələrin hər birində uzun illər yer aldıq. Mən cəmi dörd aydır buradayam. Bəs mən nəyə nail oldum? Mən onları hərbi cəhətdən məğlub etdim".

Onun fikrincə, bu, təkcə İranla müharibə deyil, həm də İranın nüvə silahından imtinasıdır: "Onların nüvə silahına sahib olmasına icazə vermək olmaz". Tramp ABŞ-ın Hörmüz boğazına qarşı blokadasının heç bir halda pozulmadığını əlavə edib. Onun sözlərinə görə, blokada zamanı bir gəmi belə, İrana keçməyib.

**Tehran: Hörmüz boğazı İranın nəzarətindədir**

İranın xarici işlər nazirinin müavini Kazım Qəribabadi isə bəyan edib ki, Hörmüz boğazı ABŞ Mərkəzi Komandanlığına (CENTCOM) aid deyil və İranın nəzarətindədir. "Bəhreyn Müdafiə Qüvvələri Fars körfəzi üçün hüquqi nizam və təhlükəsizlik yarada bilməz", - deyə o bildirib və əlavə edib ki, regionun təhlükəsizliyi müdaxilənin başa çatması, ABŞ ordusunun regiondan çıxarılması, ölkələrin suverenliyinə hörmət və yeni geosiyasi reallıqların qəbul edilməsi ilə təmin edilir. Onun sözlərinə görə, Amerikanın hərbi çətiri altında regionda sabitlik yarana bilməz. K.Qəribabadi bununla CENTCOM-un Bəhreyndə keçirilən görüşün yekunlarına dair bəyanatına cavab verib.

Xatırladaq ki, CENTCOM iyulun 1-də Bəhreynin ev sahibliyi etdiyi regional təhlükəsizlik dialoquna rəhbərlik edib. "CENTCOM komandanı Bred Kuper, Bəhreyn, Misir, İordaniya, Küveyt, Livan, Oman, Qətər, Səudiyyə Ərəbistanı, Suriya, Birləşmiş Ərəb Əmirlikləri və Yəmənden olan yüksəkrütbəli hərbi rəsmilər mövcud regional təhlükəsizlik mühiti, müdafiə sahəsində əməkdaşlığın genişləndirilməsi imkanlarını müzakirə ediblər", - CENTCOM-un bəyanatında bildirilib. Qeyd olunub ki, Hörmüz boğazı vasitəsilə ticarətin sərbəst axınına sadiqlik vurğulanıb: "Biz regional tərəfdaşlarımızla çiyin-çiyinə dayanmağa davam edirik. ABŞ və regional tərəfdaşları Yaxın Şərqdə dünyanın ən qabaqcıl raketdən müdafiə çətirini idarə edirlər. Yanvar ayında CENTCOM və region ölkələri məlumatların, təhdid xəbərdarlıqlarının paylaşılması, həmçinin gözlənilməz hallara reaksiya verilməsi məqsədilə yeni Yaxın Şərq Hava Hücumundan Müdafiə koordinasiya bölməsini yaradıb. Bu təhlükəsizlik dialoqu Suriya və Livandan olan hərbçilərin ilk dəfə olaraq ABŞ-ın rəhbərlik etdiyi regional müdafiə konfransında iştirak etməsi ilə əlamətdar olub".

***N.BAYRAMLI***

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Spark Press" MMC - 0503548555
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**




# Kitablar artıq cibimizdədir...

## Elektron mütaliə dövrü



Əvvəllər metroda, avtobusda sərnişinlərin əksəriyyətini kitab və qəzet oxuyarkən görmək olardı. İndi də oxuyanlar var. Amma onların əlində daha çox elektron oxuma cihazlarını (e-rider) görmək mümkündür. Bu kitablar insanların oxuma vərdişlərini əhəmiyyətli dərəcədə dəyişdirərək minlərlə kitabı bir cihazda toplamaq, istənilən vaxt və istənilən məkanda oxumaq, mətn üzərində qeydlər aparmaq, sözlərin mənasını dərhal araşdırmaq, hətta şrift ölçüsünü fərdi ehtiyaclara uyğunlaşdırmaq kimi imkanlar təqdim edir.

Elektron kitabların üstünlükləri çoxdur. Belə ki, onlar daha rahat və münasib qiymətədir, əksər hallarda bir çox əsərləri internetdən pulsuz yükləmək olur. Elektron-kitab tərəfdarları deyirlər ki, onsuz da bir əsəri bir dəfədən artıq oxumaq olmur. Hər dəfə pul verib kitab almaq büdcəyə ziyan vurur, digər tərəfdən evdə də rəfdə yer tutur. Elektron kitablarda isə romanı bir dəfə oxuyandan sonra onu pozub yerinə başqasını yazmaq olar.

Araşdırmalar bütün dünyada kitab oxumaq meyillərinin ürəkaçan olmadığını göstərir. Müasir texnoloji cəmiyyətdə insanlar kitabxana və mağazalarda əvvəlki qədər vaxt keçirmirlər. Son illər mütaliə sevənlər arasında elektron qurğulardan oxumağa meyil artır.

Yeri gəlmişkən, iyulun 4-ü Ümumdünya Elektron Kitab Günüdür. Bu günün məqsədi elektron kitabların və digər rəqəmsal oxu formatlarının təşviq edilməsi, elektron kitabxanaların və oxu platformalarının populyarlaşdırılmasıdır. Elektron kitablar, hər zaman və hər yerdə oxumaq üçün əlverişli bir seçimdir. Bu gün, hər kəs elektron kitabların faydaları haqqında məlumatlandırmaq və onları oxumağa təşviq etmək üçün bir fürsətdir.




Son illər mütaliəyə maraq azalıb, bunu hər kəs təsdiqləyər. Lakin gününü kitab oxumadan təsəvvür edə bilməyən insanlar da çoxdur. Məhz buna görə də bu gün ölkə kitabxanalarında həm də elektron kitabxanaların fəaliyyət göstərməsi təqdirəlayiq haldır. Elektron kitabxananın özünəməxsus üstünlükləri var. Xüsusilə, gənclərin istifadə etdikləri elektron kitab onlara təhsilin müxtəlif pillələrinə, ixtisaslarını artırmaq üçün imtahanlara hazırlaşmalarında, müxtəlif elmi işlərlə bağlı araşdırmalar aparmaqda əvəzsiz köməkçidir.

**Elektron kitablar ənənəvi kitabları əvəz edəcək?**

Bu sual uzun illərdir müzakirə olunsa da, görünən odur ki, hər iki format rəqib olmaqdan daha çox bir-birini tamamlayan vasitələrdir. Çünki bir insan gündəlik işə gedərkən telefonunda və ya elektron oxuyucusunda kitab oxuya, axşam isə sevdiyi romanın çap olunmuş nüsxəsini əlinə alaraq tamamilə fərqli bir oxu zövqü yaşaya bilər. Əslində kitabın dəyərini müəyyən edən onun kağızdan hazırlanması və ya rəqəmsal fayl olması deyil, oxucunun düşüncəsində yaratdığı dəyişiklik, dünyagörüşünə əlavə etdiyi yeni baxış bucağı və yaddaşında buraxdığı izdir. Böyük ideyalar nə mürəkkəbdən, nə də piksellərdən asılıdır - onlar insanın düşüncəsində yaşayır və inkişaf edir.

Əslində Ümumdünya Elektron Kitab Günündə ən maraqlı nəticə budur ki, texnologiya kitabı bizdən uzaqlaşdırmayıb, əksinə onu daha əlçatan edib. Bu gün milyonlarla insanın əvvəllər əldə edə bilmədiyi əsərləri rahatlıqla oxumasına imkan yaradır, eyni zamanda ənənəvi kitabların da öz dəyərini qorumasına şərait yaradaraq oxuculara seçim azadlığı bəxş edir.

*Yeganə BAYRAMOVA*

# Səsləri təhvil verin!

## Çünki onlayn sizi eşidir...



*Məqsəd Nur*

Məgər pisdir? Yaratmaq istədiyin süni "varlıq" sənin səsini də nüsxələyir. Hər şeyi oraya təhvil vermək məcburiyyətindəyiksə, səsləri də təhvil verək, getsin. Ən azı böyük data mərkəzlərin yaddaş bankı zənginləşsin. Zənginləşməyi bir yana, heç olmasa şüurlu ömrümüzdə pisi yaxşıdan, ağı qaradan seçək. Budur, gəlib, qapıda, qulağımızın dibindədir. Bütün platformalarda Musiqi Sİ (Süni İntellekt), Səs Sİ bir göz qırpımında bizə doğmalaşmaq, ürəyimizə girmək, ruhumuza yol tapmaq üçün dəridən-qabıqdan çıxır...

Bu yazını yazmaq üçün mən də saatlarla Sİ səslərə qulaq asdım: əvvəl feyziyab oldum, xronometraj uzandıqca yoruldum, hətta qorxdum, mənə elə gəldi ki, uzaq səfərə getmişəm və bir az da getsəm, geri dönməyim çətin olacaq. Sonra radioda retro musiqilərimizə qulaq asdım, xronometraj uzandıqca yorulmadım, ziqzaqlı əhvallara düşdüm, amma səslərdən doymadım...

Əlbəttə, bu kiçik eksperiment ciddi göstərici hesab edilə bilməz, itib-getməkdə olan insan növünün tarixə, keçmişə və həyat hekayələrinə bağlılığı kimi də qəbul edilə bilər. Bircə həqiqət isə danılmazdır: hər tarixin öz Səsi var! Amma indiyədək gördüyümüz səslər min bir təbii proseslərdən keçərək, süzülərək gəlirdisə, indi əsas funksiya elektron süzgəcin üzərinə düşür - süzgəc səsi geri qaytarıb daşa-qayaya da çırpa, min arşın quyunun içində salıb inildə də bilir. Lakin nə edir-etsin, bircə çaları da təbiiləşdirə bilmir...

Hər bir insan səsi sərvətdir. Onları toplayıb saxlamaq gərəkir. İnanmıram ki, bundan sonra dünyamız indiki qədər çoxsəsli, çoxrəngli və çoxdərdli olsun. Sadələşmə səs seçimini də tükəndirəcək, ona görə də qlobal şəbəkə nə yığdı-yığdı! Tarixdən və sivilizasiyadan qopara bildikləri səs resursları isə möhtəşəmdir...

Radio çıxmasaydı, biz səslərimizi haradan qoparacaqdıq? Qızıl səs fondlarımız qorunmasaydı, nə edəcəkdik? Səsin sehrini necə qiymətləndirəcəkdik? Ümidim var ki, Sİnin yaddaşında müstəqillik dövrünün kasadsözlü "DJ" səsləri at oynatmayacaq - çoxqatlı diktor məktəbimizin sehrli səsləri xalq içindən səs göylərimizdə qanad çalıb, səmaları aydınladacaq. "Mədəniyyət-2040" Konsepsiyamız da bu sahəyə diqqət yetirəcək, müzakirələr aparılıb texniki təminatlar yaradılacaq. Yoxsa ki, hal-hazırda Sİ-də olduğu kimi - çox səs çıxarıb çox irəli çəkilənlər qabağa düşsə, vay səsimizə...

Hə, bir də yeni, identik səsləri toplayırıqmı? Toplayıb qorumaq üçün sistemimiz varmı? Musiqi səslərini nəzərdə tutmuram - qiraət, dublyaj və sair bu kimi xalq içindən süzülüb gələn peşəkar səsləri deyirəm. Bir çox hormonal resurslar kimi, səslərimiz də günü-gündən cılaşacaq, dəyişəcək - bu qaçılmazıdır...

Səslər də tarixdir. Səslərdə tarixin izi var. Sİ səsləri isə eyni cür oxuyur, eyni danışır: sonra başa düşürsən ki, bu səs deyil - plastik tullantıdır, silikondur. Ona SƏS verin ki, o da özünə çəki-düzən verə bilsin...

*İdman*

## Azərbaycan güləşçiləri Avropa çempionatında mübarizə aparacaqlar




İyulun 6-dan 12-dək Şimali Makedoniyanın paytaxtı Skopyedə güləş üzrə U-20 Avropa çempionatı keçiriləcək. AZƏRTAC xəbər verir ki, qitə birinciliyində açılışı yunan-Roma güləşi üzrə millinin üzvləri edəcək. Böyük məşqçi Turac Hüseynli, məşqçilər Emin Əhmədov, Həsən Əliyev və Elvin Mürsəliyevin rəhbərliyi altında Emin Cavadlı (55 kq), Ayxan Cavadov (60 kq), Tural Əhmədov (63 kq), Roman Kərimov (67 kq), Kamran Rəcəbli (72 kq), Cavidan Nehmətov (77 kq), Elmin Əliyev (82 kq), Orxan Hacıyev (87 kq), Mahir Qurbanlı (97 kq) və Museyi-Kazim Hüseyn (130 kq) Skopye arenasında mübarizə aparacaqlar.

Daha sonra qadın güləşi üzrə qarşılaşmalar başlayacaq. Baş məşqçi əvəzi Toğrul Əsgərov və böyük məşqçi Ağahüseyn Mustafayevin rəhbərliyi altında Nəzrin Əhmədli (50 kq), Esra Məmmədli (53 kq), Qaratel Quliyeva (55 kq), Günay Qurbanova (59 kq), Ruzanna Məmmədova (62 kq) və Zəhra Kərimzadə (72 kq) ölkəmizi təmsil edəcək.

Yarışın sonlarında böyük məşqçi Əşrəf Əliyev, məşqçilər Rövşən Hacıyev, Nazim Əlicanov və Əsgərxan Novruzovun rəhbərliyi altında Muhəmməd İsmayılov (57 kq), Camal Abbasov (61 kq), Bəşir Verdiyev (65 kq), Hacı Kərimov (70 kq), Nurlan Ağazadə (74 kq), Elcan İsmayılzadə (79 kq), Məhəmməd Abbaszadə (86 kq), Hüseyn Məmmədtağızadə (92 kq), Fərhad Süleymanlı (97 kq) və Yusif Dursunov (125 kq) uğur qazanmağa çalışacaq.

## Atletlərimiz Balkan çempionatında iştirak edəcək




İyulun 4-də Sloveniyanın Novo Mesto şəhərində 18 yaşadək atletlər arasında Balkan çempionatı start götürəcək. Atletika Federasiyasından AZƏRTAC-a bildirilib ki, yarışda Azərbaycan millisi 10 idmançı ilə təmsil olunacaq.

Qadınların yarışında Safiya Kərimova 100 metr, Mədinə Hüseynzadə 400 metr, Gülçin Nağıyeva 800 metr məsafəyə qaçış, Zeynəb Əmrahova isə lövhəatma növündə qüvvəsini sınayacaq.

Kişilər arasında Ramil İsmayılov üç təkanla tullanma, Şamxal Həsənzadə uzunluğa tullanma, Mehdi Abaszadə 400 metr, Bülbül Babayev hündürlüyə tullanma, Daniil Şuvayev 100 metr, Loğman İsrafilli isə 800 metr məsafəyə qaçış yarışında çıxış edəcək.

Yığmanın məşqçiləri Orxan Aslanov, Mixal Poqani və Anar Yusifovdur.

## Massimiliano Alleqri "Napoli"nin baş məşqçisi təyin olunub




Massimiliano Alleqri İtaliyanın "Napoli" klubunun baş məşqçisi təyin edilib. Bu barədə Neapol təmsilçisinin rəsmi saytı məlumat yayıb.

58 yaşlı mütəxəssislə 2029-cu il iyunun 30-dək nəzərdə tutulan müqavilə imzalanıb. O, bu vəzifədə Antonio Konteni əvəzləyib.

Kontenin rəhbərliyi altında "Napoli" 2024/2025-ci illər mövsümündə İtaliya çempionu olub və ölkə Superkubokunu qazanıb. Komanda ötən mövsümü isə A Seriyasında ikinci pillədə başa vurub.

Qeyd edək ki, Massimiliano Alleqri son olaraq "Milan"ı çalışdırıb. Onun rəhbərliyi altında Milan təmsilçisi ötən mövsüm A Seriyasında beşinci pillədə tamamlayıb.

## Yulian Naqelsmann Almaniya millisinin baş məşqçi postundan ayrılıb

Futbol üzrə Almaniya millisinin baş məşqçisi Yulian Naqelsmann vəzifəsindən ayrılıb. "Bild" nəşrinin xəbərinə görə, ötən gün Almaniya Futbol Federasiyasının Frankfurtdakı qərargahında keçirilən üç saatlıq görüşdə 38 yaşlı mütəxəssisə yığmadakı fəaliyyətini başa vurması təklif olunub. Bundan sonra Naqelsmann istefa vermək qərarı verib.

Bildirilib ki, müqaviləsinə vaxtından əvvəl xitam verildiyi üçün almaniyalı çalışdırıcıya təxminən 7 milyon avro məbləğində kompensasiya ödəniləcək.

Qeyd olunub ki, Almaniya millisinin baş məşqçi postuna əsas namizədlərdən biri Yurgen Kloppdur. Mütəxəssisin "Red Bull"la müqaviləsində bu vəzifəni qəbul etməsi üçün erkən ayrılmağa imkan verən bənd mövcuddur.




Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4224**
**Sifariş: 847**
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova